Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

24 YANVAR 2020-ci il

№ 12 (4143)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# AZƏRBAYCAN GƏNCLİYİ İLƏ BAĞLI BULANIQ NİYYƏTİN ANONSU? - PREZİDENTİN DAVOSDA NEYTRALLAŞDIRICI ƏKS GEDİŞİ...

■ səh. 8 ■

Azərbaycanın regional təşkilatlarda praqmatik prinsiplərə söykənən iştirakı Davosda bir daha müzakirəyə çıxarıldı...

■ səh. 5 ■

Azərbaycanın yeni parlamentinin vacib missiyaları Davosda dünya liderlərinə çatdırıldı...

■ səh. 5 ■

Siyasi qətllər Paşinyan iqtidarının sonunu tezləşdirmək həddinə çatır...

■ səh. 7 ■

Azərbaycanın qızıl ehtiyatı böyük artım ərəfəsindədir

■ səh. 10 ■

Yetkinlik yaşına çatmayanların cinayətləri 30 faiz azalıb - Azərbaycanda polisin səmərəli fəaliyyətinin daha bir göstəricisi...

■ səh. 6 ■

Bu il bank kreditlərinin xeyli ucuzlaşacağı gözlənir...

■ səh. 12 ■

Kirayə mənzillərin də elektron satış sistemində problem yarandı - təsadüf, ya...

■ səh. 13 ■

Türkiyədə qadağan olunub, Azərbaycanda marketlərdə satılır - "Rivera" zeytun yağı...

■ səh. 10 ■

Magistratura və doktorantura dərslikləri hələ də yoxdur

■ səh. 14 ■



■ səh. 9 ■

## Ermənistan prezidenti Osvensimin 75 illiyi konfransında iştirak üçün Yerusəlimə dəvət olunub - qəhrəmanlaşdırılan faşist ermənin əlində yəhudi qanları da var...





Müstəqillik, suverenlik və öz gücünə güvən Azərbaycan gəncinə nə verir - İdeya Davosdan gəldi...

■ səh. 3 ■

Azərbaycanın neft siyasəti hasilatçı ölkələri qiymət artımından xilas etdi...

■ səh. 9 ■

DİN rəhbəri Yol Polisi əməkdaşlarının cərimələrdən qanuni bəhrələnmək mexanizmində köklü dəyişiklik etdi...

■ səh. 6 ■

■ səh. 4 ■

65 saylı seçki dairəsində kürdəmirlilər Əhliman Əmiraslanovu dəstəklədi



■ səh. 3 ■

"Azərbaycan Prezidenti Davosda regionumuz üçün bütün təhdid mənbələrinin tam coğrafiyasını təqdim etdi"



■ səh. 4 ■

Vüqar Rəhimzadə Prezidentin Davos çıxışından bu nəticəni çıxardı - Azərbaycan dünyanın siyasi və iqtisadi elitasının diqqət mərkəzindədir...



■ səh. 7 ■

Deputatlığa namizədlər piar-mütəxəssislərə müraciət etmir, özləri isə yarıtmır...



■ səh. 11 ■

Seçkidən sonra Azərbaycanda ömürlük məhbuslarla bağlı hansı yeniliklər olacaq...



# Prezident İlham Əliyev Davosda "Swiss Re" şirkətinin rəsmisi Veronika Skotti və "Procter and Gamble Europe" şirkətinin prezidenti ilə görüşdü

**Prezident İlham Əliyev Davosda "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşüb.**

Görüşə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Veronika Skotti dövlət başçısı tərəfindən son illərdə aparılan islahatlar nəticəsində Azərbaycanda sığorta sahəsinin inkişafı və təkmilləşməsi üçün yaxşı imkanların yarandığını bildirib, qeyd edib ki, "Swiss Re" şirkəti Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarda iştirak etməyə, Azərbaycanda sığorta bazarının inkişafına töhfə verməyə hazırdır.

"Swiss Re"nin əsasən fövqəladə hallarda yaranan sığorta hadisələri və onların təkrar sığortası üzrə dünyanın ixtisaslaşmış lider şirkətlərindən biri olduğunu deyən Veronika Skotti təmsil etdiyi qurumun müxtəlif ölkələrdə həyata keçirdiyi layihələr barədə məlumat verib.

Dövlət başçısı ölkəmizdə sığorta bazarının, xüsusilə daşınmaz əmlak sahəsində sığorta sisteminin səmərəli təşkilinin və inkişafının vacib olduğunu vurğulayıb.

Görüşdə bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda tətbiqini sürətləndirəcək xarici investorlarla, o cümlədən "Swiss Re" şirkəti ilə əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan Prezidentinin Davosda daha bir görüşü "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel ilə olub.

Loik Tassel görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək, son illərdə Azərbaycanda həyata keçirilən islahatları, xüsusilə biznes sahəsində mühasibatlılığın və şəffaflığın artırılması, vergi və gömrük sahələrində islahatların ümumi rəqabət mühitinə verdiyi müsbət töhfəni yüksək qiymətləndirib. Bildirilib ki, bu, "Procter and Gamble Europe" şirkətinin ölkəmizdəki fəaliyyətinin inkişafı üçün çox önəmli amildir. Azərbaycanın bugünkü biznes mühitinin bütün xarici investorların öz fəaliyyətlərini genişləndirmələri üçün çox əlverişli imkan yaratdığını deyən Loik Tassel rəhbəri olduğu şirkətin ölkəmizdəki biznes və sosial fəaliyyəti



barədə danışıb.

Prezident İlham Əliyev gələcəkdə də Azərbaycanda xarici investorlar üçün biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin görüləcəyini vurğulayıb.

Söhbət zamanı bildirilib ki, "Procter and Gamble Europe" şirkəti fəaliyyətini Orta Asiya və Uzaq Şərqə doğru genişləndirmək niyyətindədir və regional mərkəz olaraq məhz Bakı şəhəri seçilib. Görüşdə o da vurğulanıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və Azərbaycanda yaradılan biznes mühiti şirkətin ölkəmizdəki ofisi vasitəsilə Şərqə doğru genişlənməsinə əlverişli imkan yaradacaq.

# AȚƏT-in rəsmi nümayəndələri KİVDF-nin icraçı direktoru Vüqar Səfərli ilə görüşdülər

**Yanvarın 23-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının media analitiki Kira Kalinina Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli ilə görüşüb.**

Fondun fəaliyyəti barədə qonağa ətraflı məlumat verən icraçı direktor qurumun Prezident İlham Əliyevin 3 aprel 2009-cu il tarixli sərəncamı ilə yaradıldığını bildirib. V.Səfərli Fondun yaradılmasının xüsusilə də internet mediası ilə rəqabətdə uduzan çap mediasının üzləşdiyi problemlərin həlli baxımından əhəmiyyətini diqqətə çatdırıb.

İcraçı direktor Fondun fəaliyyət göstərdiyi 11 ilə yaxın müddətdə çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı çoxsaylı layihələr barədə məlumat verib. V.Səfərli Fondun maliyyə dəstəyi ilə hazırda 25 ictimai-siyasi qəzetə maliyyə dəstəyinin göstərildiyini, habelə jurnalistlər üçün müntəzəm olaraq fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunduğunu bildirib. Qeyd edilib ki, Fond tərəfindən və digər dövlət qurumları ilə birgə keçirilən fərdi jurnalist yazıları müsabiqələri media nümayəndələrinin yaradıcı əməyinin stimullaşdırılması və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də beynəlxalq təşkilatlar və diplomatik korpuslarla əməkdaşlığın dərinləşdirilməsi məqsədinə xidmət edən birgə tədbirlərin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə reallaşdırılan layihələr, o cümlədən bir sıra Avropa və MDB dövlətlərinə təşkil edilən səfərlər barədə məlumat verən Vüqar Səfərli bildirib ki, məqsəd müxtəlif ölkələrin mediasının fəaliyyəti ilə yaxından tanış olmaq və qarşılıqlı faydalı əməkdaşlığı gücləndirməkdir.

Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı ilə dövlət büdcəsi hesabına jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən söz açan Vüqar Səfərli bunu dünyada analoqu olmayan sosial layihə kimi dəyərləndirib. İcraçı direktor dövlət başçısının müvafiq sərəncamları əsasında son 10 ildə 2 çoxmərtəbəli yaşayış binasının inşa edilərək istifadəyə verildiyini, ehtiyacı və medianın inkişafında xidmətləri olan 411



nəfər KİV əməkdaşının şəffaf meyarlar əsasında mənzillə təmin olunduğunu diqqətə çatdırıb. Vüqar Səfərli inşası yekunlaşmaqda olan sayca üçüncü binanın bu il istifadəyə veriləcəyini və daha 255 nəfər jurnalistin mənzillə təmin olunacağını bildirib.

İcraçı direktor onu da bildirib ki, ölkəmiz üçün mühüm siyasi əhəmiyyət kəsb edən seçkilər ərəfəsində Fondun Mərkəzi Seçki Komissiyası ilə birgə keçirdiyi konfranslar jurnalistlərin maarifləndirilməsinə xidmət edib. "Jurnalistlərin seçki prosesində iştirakının əsasları" mövzusunda keçirilən konfranslarda MSK üzvləri, habelə tanınmış hüquqşünas-ekspertlər tərəfindən jurnalistlərin seçkilərdə iştirakının hüquqi əsasları ilə bağlı ətraflı məlumat verilib, habelə media nümayəndələrini maraqlandıran sualları ətraflı cavablandırılıb. Fondun maliyyə dəstəyi ilə hazırlanan buklet və kitabçalar əyani maarifləndirici vəsait kimi media nümayəndələrinə təqdim edilib.

Sonda ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının media analitiki Kira Kalinini maraqlandıran suallar ətraflı cavablandırılıb.




# Almaniyada erməni mafiyasına qarşı daha bir əməliyyat keçirildi

**Almaniyanın Erfurt şəhərində ölkə ərazisinə saxta sənədlərlə daxil olmuş iki nəfərlə əlaqədar polis reydi keçirilib. "Trend"in məlumatına görə, onlar erməni mafiyasına mənsub olmaqda şübhəli bilinir.**

Qeyd olunur ki, həmin iki nəfər Almaniyaya 20 il əvvəl saxta sənədlərlə və saxta ad altında daxil olub. Onların 2017-ci ildə rəqib erməni qruplaşmaları arasında atışmada iştirak etdiyi də ehtimal olunur.

Polisin məlumatına əsasən, Almaniyada fəaliyyət göstərən erməni mafiyası 1990-cı illərin əvvəllərində əsasən Azərbaycandan Almaniyaya getmiş ermənilərdən ibarətdir.

# Müstəqillik, suverenlik və öz gücünə güvən Azərbaycan gəncinə nə verir - İdeya Davosdan gəldi...

**Azərbaycanın, o cümlədən, gənc nəslin əsas ideyası və ideologiyası suverenlik, müstəqillik və öz ehtiyatlarımıza güvənməkdir. Bunu Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirakı zamanı moderatorun suallarını cavablandırarkən deyib.**



Ölkə başçısı Azərbaycan gəncləri ilə bağlı maraqlı məqamlara toxunub: "Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, gənclər startap biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edib. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük".

Prezident onu da qeyd edib ki, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir: "Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şüarlardan istifadə etmiş, lakin sonra vəd etdiklərini yerinə yetirə bilməmişdir. Əslində, onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə onu müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altında olur. İnsanlar onu seçir, lakin bir ildən sonra o, ona göstərilən etimadı itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilmişdir. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır".

Bütövlükdə, gənclərin sözügedən prinsiplərə əsaslanan ideologiyaya söykənməsi onlara hansı gücü verir?

Məsələyə münasibət bildirən media eksperti Azər Həsrət buna bir neçə kontekstdən yanaşdı: "Prezident İlham Əliyevin növbəti dəfə Davosda yüksək səviyyədə iştirakı Azərbaycan dövlətinin əhəmiyyətini bir daha təsdiqləmiş olur. Üstəlik, onun şəxsi liderlik özəllikləri, danışıqlar aparması, ümumiyyətlə, ayrı-ayrı şəxslərlə görüşlər keçirməsi xüsusən də Azərbaycan gənclərinə əlavə stimul verir. Yəni bir Azərbaycan liderinin bu cür yüksək səviyyəli toplantılarda, görüşlərdə iştirakı gəncləri həvəsləndirir. Üstəlik, onun ölkə gəncləri ilə bağlı dediyi o fikirlər gənclərimiz üçün əlavə stimul rolunu oynayır. Müstəqilliyin, suverenliyin qorunması, bu məsələdə gənclərin üzərinə vəzifələrin düşməsi, onlara etimadın göstərilməsi ölkə başçısının önəm verdiyi siyasi kursdur. O cür yüksək səviyyəli tədbirdə Prezidentin bu cür fikirlər səsləndirməsi həm gənclərə etimaddır, həm də əlavə məsuliyyət deməkdir. Yəni bu, bir növ, o deməkdir ki, cənab Prezident Azərbaycan gənclərinə güvənir, inanır. Bununla belə, onlardan bir məsuliyyət də tələb edir ki, ölkəmizin gələcəyinin qarantiyası məhz gənclərimizdir.

*Azər Həsrət: "Gənclərimizin sözügedən ideologiyaya söykənməsi onların gücünü daha da artırır"*

*"Prezidentin ölkə gəncləri ilə bağlı dediyi o fikirlər gənclərimiz üçün əlavə stimul rolunu oynayır"*

Düşünürəm ki, gənclərimizin sözügedən ideologiyaya söykənməsi onların gücünü daha da artırır. Gənclərimizin daha da irəli getməsi, inkişaf etməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində ciddi rol oynamaları üçün əlavə imkanlar açır".

***Vidadi ORDAHALLI***

# Aydın Quliyev: "Azərbaycan Prezidenti Davosda regionumuz üçün bütün təhdid mənbələrinin tam coğrafiyasını təqdim etdi"

**Davos İqtisadi Forumunun "Avrasiyaya strateji baxış" sessiyasında Azərbaycan Prezidentinin bir sıra maraqlı sualları cavablandırması ölkəmizin əldə etdiyi nəticələrin və gələcəyə yönəlik hərtərəfli strategiyasının təqdimatı baxımından çox əhəmiyyətlidir.**




Bunu Trend-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. Onun sözlərinə görə, dünya bir daha əmin olur ki, Azərbaycan ən narahat regiona yaxın coğrafiyada və hələ davam edən xarici hərbi təcavüz şəraitində hərtərəfli inkişaf edir və dinamik inkişaf templərinə yalnız islahatlar sayəsində nail olunur: "Prezident İlham Əliyev ölkəmizdə islahatlar kursunun davam etdiriləcəyinə beynəlxalq inamı daha da möhkəmləndirdi ki, bu da yeni investisiyaların cəlb edilməsi üçün geniş şərait təmin etmək baxımından olduqca dəyərlidir.

İctimaiyyətimizin və dünyanın xüsusi maraqla izlədiyi 9 fevral parlament seçkiləri barədə fikir mübadiləsi ayrıca diqqət cəlb edən məsələdir. Prezident İlham Əliyev parlamentin yeni tərkibini ölkədə islahatların mühüm hissəsi adlandırmaqla bir sıra əhəmiyyətli məqamları aktuallaşdırdı. Dövlət başçısı göstərdi ki, xalqın iradəsini əks etdirən yeni parlamentə prinsipial önəm verir. Azərbaycan Prezidenti Davosda yeni parlament mövzusuna toxunmaqla seçicilərimizin həmişəkindən daha iradəli və məsuliyyətli seçim prinsipinə söykənməli olduqları barədə aydın mesaj verdi.

Prezident İlham Əliyev Davosda bizim regionumuz üçün bütün təhdid mənbələrinin tam coğrafiyasını təqdim etdi və onun fikirləri dünyanın diqqətini regionumuzda əsas təhlükə mənbəyi kimi erməni təcavüzünün durdurulmasına yönəltməkdə yeni təsirli rol oynayacaq".

Ekspert bildirib ki, Yaxın Şərqdə artan gərginliyə görə supergüclərin məsuliyyət daşıdığı barədə Azərbaycan Prezidentinin mülahizələri real olaraq sülh üçün bəşəri əhəmiyyət kəsb edən xidmətdir: "Prezident İlham Əliyevin Şərqdəki gərgin vəziyyətlə bağlı supergüclərə çağırışı müstəsna bir cəsarət nümunəsidir və nə vaxtsa öz təsirini göstərəcəyi çox realdır. Prezident İlham Əliyev regional sabitlik naminə düşünülmüş siyasətin Azərbaycan üçün prioritet olduğunu hamıya göstərdi və Ermənistanın bütün region üçün təhlükəli təcavüz siyasətinin antibəşəri mahiyyətini ifşa etməkdə bunun əhəmiyyəti olduqca böyükdür. Prezidentin məzmunlu cavabları Azərbaycanın etibarlı tərəfdaş və sözünə bütöv dost olduğunu nümayiş etdirməklə yanaşı, öz milli maraqlarına nə qədər üstünlük verdiyini sübut etdi. Bu fikirlər digər dövlətləri Azərbaycana daha sayqılı yanaşmalara məsul etməkdə çox təsirlidir".

Baş redaktor əlavə edib ki, yeni hakimiyyət komandasının əsas vəzifələrinin təqdimatı ilə Prezident İlham Əliyev göstərdi ki, ölkədə kadr islahatlarına tələbkar və sistemli-konseptual yanaşılır və yeni hökumət Azərbaycan xalqı qarşısında daşıdığı məsuliyyətin böyüklüyünü dərk etməlidir: "Dövlət başçısı gənclər siyasətinin ölkənin gələcək çağırışları üzərində qətiyyətlə qurulduğunu inandırıcı şəkildə sübut etdi. Gəncliyimizin mənəvi - ideoloji potensialının dəqiq çərçivəsini təsvir etmək Prezidentin Davos çıxışının ən unikal əlamətlərindən biridir. İlham Əliyev gəncliyimizin müstəqillik, süverenlik və özünəgüvən platformasına söykəndiyini bəyan etdi və bununla Azərbaycan gəncliyi üzərində müxtəlif gizli planlar quran bəzi yadelli mərkəzlərə gərəkli şəkildə barmaq silkələdi. Xalqımıza yad qüvvələr gəncliyimizi təsir altına salmağın mümkünsüzlüyünü tək bu fikirlərin əsasında anlaya bilər və anlamalıdırlar.

Prezident İlham Əliyev Avrasiya inkişaf və təhlükəsizlik sistemi üçün Azərbaycanın alternativsiz rol və imkanlara malik olduğunu hər kəsin başa düşdüyü səviyyədə nümayiş etdirdi".

**65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizəd, akademik Əhliman Əmiraslanovun seçicilərlə silsilə görüşləri davam edir. Növbəti görüş yanvarın 23-də Kürdəmir rayonunun Mollakənd kəndində baş tutub.**

# 65 saylı seçki dairəsində kürdəmirlilər Əhliman Əmiraslanovu dəstəklədi

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatının sədri Ağəli Kərimli son illər rayonda görülən işlər, inkişafın göstəricisi olan tədbirlərdən söz açaraq deyib: "Rayon səviyyəsində görülən işlərdə hörmətli millət vəkilimiz akademik Əhliman Əmiraslanovun da xüsusi töhfəsi olub. O, hər zaman seçicilərinə dəstək olub, bir çox məsələlərdə onlara yardım edib. Həm yüksək ixtisaslı həkim kimi, həm də digər sosial məsələlərin həllində köməyini əsirgəməyib". Çıxışının sonunda YAP rayon təşkilatının sədri hər kəsi 9 fevralda Əhliman Əmiraslanova səs verməyə çağırıb.

Görüş zamanı akademik Əhliman Əmiraslanov sakinləri maraqlandıran məsələlərdən söz açaraq, son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bölgələrdə, o cümlədən Kürdəmir rayonunda aparılan quruculuq işlərindən, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər və nəzərdə tutulan yeni layihələr barədə məlumat verib. Əhliman Əmiraslanov sakinləri narahat edən problemlərlə həmişə məşğul olduğunu və müvafiq strukturların rəhbərləri ilə bu problemlərin həll olunması məqsədilə görüşlər keçirdiyini seçicilərin diqqətinə çatdırıb: "Mənim iş günüm seçicilərlə görüşdən başlayır. Bacardığım qədər hər kəsə yardım etməyə çalışmışam və bundan sonra da belə olacaq".





Görüşə toplaşan Mollakənd, Türkədi, Çərtəyəz və Ərəbxana kəndlərindən olan seçicilər vurğulayıblar ki, Ə.Əmiraslanov dəfələrlə ağır xəstəliyi olan insanların müayinə və müalicə olunmasında onlara yardım edib və çoxsaylı ağır xəstələrin cərrahi əməliyyatını təşkil edib. Kənd sakinləri məmnuniyyətlə qeyd ediblər ki, Əhliman Əmiraslanov həmişə seçicilərinin dərdinə şərik olub, mütəmadi olaraq seçiciləri ilə görüşlər keçirib və insanları narahat edən məsələlərin həllində onlara yaxından köməklik göstərib.

Tədbirdə çıxış edən yerli sakinlər deputatın həmişə seçicilərinin etimadını layiqincə doğrultmasından söz açaraq 9 fevral seçkilərində də, növbəti dəfə Əhliman Əmiraslanovun namizədliyini dəstəkləyəcəklərini və ona səs verəcəklərini bildiriblər.

**"Məlum olduğu kimi, yanvarın 21-də İsveçrənin Davos şəhərində 50-ci Dünya İqtisadi Forumu işə başlayıb. "Birgə və davamlı dünyanın maraqlı tərəfləri" mövzusunda keçirilən Foruma 117 ölkədən 2 mindən çox siyasətçi, akademik, iş adamı və qeyri-hökumət təşkilatlarının nümayəndələri qatılıb.**

# Vüqar Rəhimzadə Prezidentin Davos çıxışından bu nəticəni çıxardı - Azərbaycan dünyanın siyasi və iqtisadi elitasının diqqət mərkəzindədir...



Forum çərçivəsində 400-dən çox açıq və qapalı iclas keçiriləcək. Yanvarın 24-dək davam edəcək Dünya İqtisadi Forumunda 50-dən çox ölkə Prezident və Baş nazir səviyyəsində təmsil olunur. Forum, həmçinin, dünyanın hər yerindən 119 milyarderi bir araya gətirib. Həmin milyarderlərin ümumi sərvəti 500 milyard dollardan çoxdur". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında deyib.

Vüqar Rəhimzadə bildirib ki, Davosda hər il yüksək səviyyədə təmsil olunan Azərbaycan bu dəfə də Forumun iştirakçıları sırasındadır: "Hər il olduğu kimi, bu il də Prezident İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak edir. Dövlətimizin başçısı burada dünyanın ən tanınmış siyasi və iqtisadi elitaların nümayəndələri ilə görüşlər keçirir və Azərbaycanın əməkdaşlığa hazır olduğunu nümayiş etdirir. Prezident İlham Əliyev Davosa səfəri çərçivəsində indiyədək müxtəlif görüşlər keçirib, sessiyalarda iştirak edib. "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat, Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Dünya İqtisadi Forumunun prezidenti Borge Brende, Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti, Rusiyanın "LUKOIL" şirkətinin prezidenti Vahid Ələkbərov, Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan və OPEC-in baş katibi Məhəmməd Barkindo, "SUEZ Group"un yeni baş icraçı direktoru Bertran Kamus, Polşa Respublikasının Prezidenti Andjey Duda, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa, BP şirkətinin baş icraçı direktoru Robert Dadli, Gürcüstanın Baş Naziri Giorgi Qaxariya, İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa iləgörüşüb. Prezident İlham Əliyev, eyni zamanda, Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" və "Avrasiya üçün yeni baxış - dayanıqlı inkişaf üçün tərəfdaşlıq" mövzusunda iclaslarda iştirak edib. Görüşlərdə qeyd olunub ki, aparılan islahatlar Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşmasına yeni layihələrin həyata keçirilməsinə gözəl zəmin yaradır".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Forum çərçivəsində gedən müzakirələrin nəticələri bir daha Azərbaycanın uğurlarının və inkişafının davamlı olduğunu isbatlayır:"Bir daha vurğulamaq yerinə düşər ki, Azərbaycan Prezidenti İlham Əliyevin Davosda bu dərəcədə yüksək səviyyəli, səmərəli görüşlər keçirməsi və sessiyalarda iştirak etməsi Azərbaycana olan böyük maraqdan irəli gəlir. Çünki Azərbaycan həm siyasi, həm iqtisadi baxımından riskli ölkə deyil, əksinə, investisiya yatırılması üçün əlverişli şəraitə və mənbəyə malikdir".

"Davos Forumu çərçivəsində keçirilən bütün görüşlər, söylənilən fikirlər dünyanın siyasi və iqtisadi elitasının ölkəmizə olan marağını ortaya qoyur və bu fakt bir daha son dövrlər ərzində sürətlə inkişaf edən Azərbaycanın dünya dövlətləri üçün dinamizm və dayanıqlılıq nümunəsinə çevrilməsini sübuta yetirir" deyən Vüqar Rəhimzadə əlavə edib ki, Davos Forumu bir çox cəhətdən - həm qlobal, həm də regional müstəvidə, eyni zamanda, Azərbaycanın maraqları baxımından ciddi müzakirələr və qərarlarla tarixə düşür.

Forumda Azərbaycanın dünya iqtisadiyyatının ən sürətli inkişaf edən tərkib hissəsi olaraq təqdim edilməsi və nümunə göstərilməsi xüsusilə qürurverici hadisə kimi qiymətləndirilməlidir. Bu da onu göstərir ki, Azərbaycan dünyada ciddi və qüdrətli bir dövlət kimi qəbul edilməkdədir.

# Azərbaycanın regional təşkilatlarda praqmatik prinsiplərə söykənən iştirakı Davosda bir daha müzakirəyə çıxarıldı...

**Azərbaycanın müxtəlif regional və beynəlxalq təşkilatlarda iştirakı praqmatizmə əsaslanır. Bunu Prezident İlham Əliyev Davosda "Strateji baxış: Avrasiya" mövzusunda konfransda bildirib.**

*"Bu illər ərzində aparılan iqtisadi siyasət və tərəfdaşların düzgün seçilməsi müstəqilliyimizin güclənməsinə töhfə verib"*

Ölkə başçısının sözlərinə görə, Azərbaycanın əsas ideologiyası müstəqillik, özünü təmin etməkdir: "Mən Prezident kimi, Azərbaycanı özünü təmin edən, heç kəsdən asılı olmayan dövlətə çevirməyi qarşıma məqsəd qoydum. Başqa sözlə desək, iqtisadi müstəqillik əsas prioritet idi, çünki bu, siyasi müstəqilliyin təməlidir".

Prezident konfransda onu da bildirib ki, müxtəlif ölkələrin məqsədləri və iqtisadi sistemlərin zəifliyi fərqlidir: "Çox əlverişli və cəlbedici coğrafi mövqeyimiz, enerji təhlükəsizliyini təmin edən təbii ehtiyatlarımız var. Qonşu və tərəfdaşlarla münasibətlərimiz qarşılıqlı maraqlara əsaslanır - biz heç kəsdən asılı deyilik. Beynəlxalq təşkilatlarda iştirakımız praqmatizmlə əlaqədardır. Əgər bu, bizə biznes üçün böyük imkanlar verirsə, sabitlik, təhlükəsizliyi artırırsa, o zaman bunu vacib hesab edirik. Bir sıra beynəlxalq assosiasiyaların üzvüyük, misal üçün, Qoşulmama Hərəkatının".

Praqmatizmə söykənən siyasətin yeridilməsi həm də Azərbaycanın milli maraqlarına uyğundur. Bu, ölkənin milli maraqlarına nə qədər ciddi önəm verildiyinin göstəricisidir. Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, praqmatizmə söykənən siyasətin yeridilməsi Azərbaycanın maraqlarına tam uyğundur: "Davos İqtisadi Forumunda Azərbaycan Prezidentinin çıxışında tezislər ölkəmizin iqtisadi müstəqilliyinin Avropa və regionumuz üçün nə qədər vacib olduğunun göstəricisi idi. Həqiqətən də bu illər ərzində aparılan iqtisadi siyasət və tərəfdaşların düzgün seçilməsi müstəqilliyimizin güclənməsinə töhfə verib. Davos kimi beynəlxalq bir tədbirdə Azərbaycanın iqtisadi imkanlarını faktlarla nümayiş etdirmək ölkəmizə yeni investisiyaların cəlb olunmasına gətirə bilər. Hesab edirəm ki, Prezident İlham Əliyevin bu istiqamətdə çıxışı xarici şirkətlərin ölkəmizə sərmayə yatırmasına gətirəcək. Bu da dünyada reytinq göstəricilərində Azərbaycanın irəli getməsi deməkdir.

***Məhəmməd Əsədullazadə:*** *"Məhz aparılan praqmatik siyasət nəticəsində bu kimi geniş imkanlar əldə edilib"*



Məhz ölkə daxilində aparılan işlər ölkədə makroiqtisadiyyatın inkişafına şərait yaradıb. Sözügedən göstəricilər sayəsində iqtisadi müstəqillik qorunub saxlanılır. Əgər Azərbaycan buna nail ola bilməsəydi, təbii ki, Davos Forumunda bu kimi məsələlər qabardılmazdı. Məhz aparılan praqmatik siyasət nəticəsində bu kimi geniş imkanlar əldə edilib. Bütün bunlar dünyada Azərbaycanın mövqeyini daha da gücləndirir. Ona görə də hesab edirəm ki, praqmatizmə söykənən siyasət bizim maraqlarımıza uyğundur".

***Vidadi ORDAHALLI***

# Azərbaycanın yeni parlamentinin vacib missiyaları Davosda dünya liderlərinə çatdırıldı...

**Azərbaycan Prezidenti İlham Əliyev Davosda "Strateji baxış: Avrasiya" mövzusunda konfransda ölkədə aparılan islahatlardan danışıb. Prezident xüsusilə də 2020-ci il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərinin nəticələri üzrə formalaşdırılacaq Azərbaycan parlamentinin yeni tərkibi haqda da fikir bildirib və deyib ki, yeni parlament ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların mühüm hissəsi olacaq:**

"Yaxın aylarda əhaliyə etimad etdikləri şəxsləri seçmək üçün növbədənkənar parlament seçkiləri keçirəcəyik. Seçkilərdən sonra isə parlament islahatların vacib hissəsi olacaq". Prezident qeyd edib ki, Azərbaycan qonşu ölkələr barəsində dostluq siyasəti yürüdür, lakin milli maraqlar hər şeydən üstündür: "Biz siyasi-iqtisadi sahədə ciddi islahatlar aparmağa müvəffəq olduq. Nailiyyətlərimiz Ümumdünya İqtisadi Forumun qiymətləndirilməsi və Davos İqtisadi Forumun işində öz əksini tapıb. İnfrastruktur, yolların keyfiyyəti sahələrində bir çox nailiyyətlər əldə etdik, bu göstərici üzrə dünyada 27-ci yerdəyik". İ.Əliyev əlavə edib ki, həyata keçirilən islahatlar çərçivəsində hökumətin tərkibi yenilənib: "Hökumətdə yeni adamlar var. Onlar yüksək səviyyədə təhsil almış və müsir dünyagörüşləri olan gənclərdir. Mən dəfələrlə demişəm ki, XXI əsrdə uğur qazanmaq yalnız XX əsrin baxışlarına riayət etmədən mümkündür. Bu səbəbdən, nəinki hökumətdə, həm də Prezident Administrasiyasında yeni adamlar lazımdır. Burada da böyük dəyişikliklər baş verib".

Göründüyü kimi, ölkə başçısı Azərbaycanda yeni parlamentin formalaşması və aparılan kadr islahatları ilə bağlı mesajları dünya birliyinə çatdırıb. Bu mesajların nə kimi əhəmiyyəti ola bilər?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni qəzetimizə bildirdi ki, ölkə başçısı Davos Forumunda daim iştirak edir və həmin tribunadan da ölkəmizin nailiyyətləri və üzləşdiyi problemlər haqda ətraflı danışır: "Davos Forumu çox nüfuzlu platformadır. Xüsusilə də dünyanın biznes nəhəngləri həmin prosesi, oradan verilən bəyanatları diqqətlə izləyir və buna uyğun öz işlərini qururlar. Prezidentin verdiyi bəyanatın həm siyasi, həm də iqtisadi anlamda ölkəmiz üçün faydası var. Siyasi anlamda ona görə ki, bütün dünyaya ölkəmizdə aparılan yenilənmənin, kadr islahatlarının mahiyyəti çatdırılır. Eyni zamanda, vəzifələrə yeni dünyagörüşünə malik olan kadrların gətirilməsi və bunun önəmi bildirilir. Bununla da Azərbaycan barədə daha dinamik inkişafa meylli və yeniliklərlə ayaqlaşmağı bacaran bir ölkə imici formalaşdırılır. İqtisadi anlamda isə bunun ölkəmizin biznes reytinqinin artması, ölkəyə əlavə investisiyaların cəlbi baxımından böyük önəmi var. Çünki bu istiqamətdə reytinq göstəriciləri məhz belə amillərə görə formalaşır. Yeni parlamentin formalaşması da məhz aparılan islahtalarla bağlı zərurətdən irəli gəlib.

***Rauf Zeyni:*** *"Bununla da Azərbaycan barədə daha dinamik inkişafa meylli və yeniliklərlə ayaqlaşmağı bacaran bir ölkə imici formalaşdırılır"*



Hətta buraxılmaya səbəb kimi də parlamentin gedən islahatlara ayaqlaşa bilməməsi göstərildi. Bu baxımdan da yeni formalaşacaq parlamentdən daha dinamik fəaliyyət gözləməyə dəyər. Bunu əminliklə ölkə başçısı da deyirsə, deməli, parlamentin fəaliyyətində biz yenilikləri görəcəyik. Dünya ictimaiyyətinin diqqətinə çatdırılır ki, bizdəki islahatlar birprofilli deyil, çoxşaxəli şəkildə aparılır. Bizə qarşı qərəzli olan dairələr də daim Azərbaycanda islahatların zəruriliyini öz hesabatlarına salırdılar. Görək bundan sonra nə deyəcəklər?"

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə Ramil Usubov Daxili İşlər naziri vəzifəsindən azad edilərək, Prezident yanında Təhlükəsizlik Şurasının katibi təyin olundu. Onun yerinə isə Daxili İşlər nazirinin birinci müavini vəzifəsini tutan Vilayət Eyvazov gətirildi.**

# DİN rəhbəri Yol Polisi əməkdaşlarının cərimələrdən qanuni bəhrələnmək mexanizmində köklü dəyişiklik etdi...

Peşəkar və bir o qədər də qətiyyətli kadr kimi tanınan Eyvazovun polisdə islahatlar aparacağı gözlənilən idi. Yeni nazirin islahatlara Yol Polisi sistemindən başlaması təəccüblü görünmədi. Çünki son illər polis orqanlarının nüfuzuna ən çox xələl gətirən sahə kimi adı çəkilən Yol Polisində islahatların həyata keçirilməsi əsas hədəflərdən biridir.

Son dövlər ölkə rəhbərliyi sosial problemləri dərinləşdirən, vətəndaş-məmur təmasının intensiv olduğu sektorlarda dəyişikliklər apardığı, müsbətyönümlü islahatlara start verdiyi göz önündədir. İndi bu siyasətin Yol Polisi sistemində də davam etdirilməsinə zərurət yaranıb. Azərbaycanda vətəndaş-məmur ünsiyyətinin ən çox olduğu sahələrdən biri də Yol Polisi Xidmətidir. Onu da xatırladaq ki, mətbuatda Daxili İşlər Nazirliyi və polis sistemi ilə bağlı yazılan tənqidi materialların böyük əksəriyyəti məhz Yol Polisinin fəaliyyəti ilə bağlı olur. Sürücülərin yollarda əsassız saxlanması, yeri gəldi-gəlmədi, sənədlərin tələb olunması halları artıq Yol Polisində dəyişiklikləri labüd edir.

Təkcə bu neqativ hallar deyil: "MERO"larda bazar açılıb, sürücülük vəsiqəsi 1000-1200 manatdan satılır, sürücünün məlumatı olmadan sistemə vurulan cəriməyə görə faizlə ödəyənlər, maşını cərimə meydançasına salınanlar var.

Əslində, bu günün tələb və zərurəti DYP sistemində Qərb standartlarına və modelinə uyğun iş qurmağı tələb edir. Bunun üçün kifayət qədər vəsait qoyulubsa, niyə DYP əməkdaşları ilə sürücülərin birbaşa təması minimuma endirilmir? Dünyanın əksər ölkələri ilə müqayisədə bizim Yol Polisi ən son model avtomobillərdə xidmət aparır. Onların texniki təchizatı ən yuxarı səviyyədədir. Onda isə niyə bu qurum əhalini narazı salmalıdır?

DYP-dən olan narazılıqların boyuk bir hissəsi də yollarda, xüsusilə də respublika əhəmiyyətli traslarda həddindən çox DYP naryadlarının xidmət aparmasıdır. Bir müddət biz araşdırma aparmışdıq ki, təkcə Bakıdan Sumqayıta getmək üçün iki post, 10 yaxın DYP naryadını ötüb keçməlisən. Halbuki, dünyanın inkişaf etmiş ölkələrində minlərlə kilometr məsafəni qət edəndə belə DYP əməkdaşlarına nadir hallarda rast gəlinir. Əvvəllər DYP əməkdaşlarının cərimə yazmağa daha meylli olması onların daha çox pul qazanmaq istəyilə əlaqələndirilirdi. Burada söhbət heç də qanunsuz əməldən getmirdi. Ancaq dərin kökündə bir sosial ədalətsizlik vardı.



Bu günlərdə "Bakı-Xəbər TV"nin studiyasında qonaq olan yol hərəkəti üzrə ekspert Elməddin Muradlı müsahibəsində artıq bu sistemə də yeniliyin edildiyini bildirdi. Bunu bir qədər detallı başa salaq ki, hamı anlasın. Əvvəl DYP əməkdaşı yazdığı cərimələrə görə faiz əldə edirdi. Həmin pul birbaşa onun əməkhaqqı kartına oturur-du. Bu səbəbdən də əməkdaş cərimənin çox yazmaqda maraqlı görünürdü. Elməddin Muradlı bildirdi ki, Bakı şəhər DYP-sinin rəhbərliyi özlərinə yaxın olan əməkdaşları daha çox cərimənin yazılması mümkün olan yerlərdə naryad aparmağa təyin edirdi, digərlərini isə yolu tənzimləməyə göndərirdi. Bunun da nəticəsində iki əməkdaşın qazancı arasında kəskin disbalans yaranırdı. Ekspert bildirdi ki, artıq nazir Vilayət Eyvazov bu sistemə yenilik edib və bununla da sosial ədalət prinsipi qorunub. Yenilk belədir ki, əməkdaşların yazdığı bütün cərimələrdən gələn qazanc bir yerə toplanıb, bütün şəxsi heyət arasında bərabər şəkildə bölünür. Bununla da bütün əməkdaşlar, demək olar ki, eyni qazancı əldə etmiş olur. Təqdir olunası haldır.

***Məhəmmədəli QƏRİBLİ***

**Daxili İşlər Nazirliyində 2019-cu ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

*"Bütün bu göstəricilər polisin narahat gecələrinin məhsuludur"*

# Yetkinlik yaşına çatmayanların cinayətləri 30 faiz azalıb - Azərbaycanda polisin səmərəli fəaliyyətinin daha bir göstəricisi...

***Şəmsəddin Əliyev:** "Cinayətlərin sayının azalması bir sıra faktorlarla bağlıdır"*

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov bildirib ki, ötən il mütəşəkkil cinayətkarlıqla mübarizə məqsədyönlü şəkildə həyata keçirilib və hesabat ilində 818 cinayətkar qrup zərərsizləşdirilib. Bununla belə, 2018-ci illə müqayisədə ötən il bir sıra cinayətlər azalıb: "2018-ci illə müqayisədə qəsdən adam öldürmələr 5,4, adam öldürməyə cəhdlər 23,4, mülkiyyət əleyhinə olan cinayətlər 12, o cümlədən, soyğunçuluqlar 3,9, quldurluqlar 2, dələduzluqlar 24,3, hədə-qorxu ilə tələb etmələr 25, avtonəqliyyat vasitəsinin qaçırılması faktları 15,5, habelə xuliqanlıqlar 13,4, ictimai yerlərdə baş verən cinayətlər 26, yetkinlik yaşına çatmayanların cinayətləri 30,1, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlər 1,3 faiz azalıb. Eyni zamanda, ağır və xüsusilə ağır cinayətlərin 87, şəxsiyyət əleyhinə olanların 97, onlardan qəsdən adam öldürmələrin 95, adam öldürməyə cəhdlərin 98, qəsdən sağlamlığa ağır zərər vurmaların 94, xuliqanlıqların 93, mülkiyyət əleyhinə olan cinayətlərin 73,4 faizinin, onlardan oğurluqların 65,4, dələduzluqların 94, soyğunçuluqların 84, quldurluqların 86, hədə-qorxu ilə tələb etmələrin 91, avtonəqliyyat vasitəsini qaçırmaların 81 faizinin, eləcə də prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 329 cinayətin açılması təmin edilib".

Görünən odur ki, polis orqanlarının səmərəli fəaliyyəti nəticəsində bir sıra cinayətlərin sayı azalıb. Xüsusən də yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlərin 30 faiz azalması ciddi göstəricidir. O baxımdan bunu ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyevin sözlərinə görə, sadalanan cinayətlərin sayının azalması bir sıra amillərlə bağlıdır: "DİN-in Kollegiya iclasında bir daha bəlli oldu ki, cinayətkarlıqla mübarizə və dövlətin bu yöndə siyasəti kifayət qədər səmərə verən kursda inkişaf edir. Polisin səmərəli fəaliyyəti nəticəsində şəxsiyyət əleyhinə cinayətlərin sayı azalmaqda davam edib. Bura vətəndaşların sağlamlığına ziyan vurma halları, soyğunçuluq, quldurluq hadisələri daxildir. Bütün bu cinayətlərin hamısı azalıb. Cinayət məsuliyyətinə cəlb olunanların sayı da əvvəlki illərə baxanda azalıb.




Xüsusən də yetkinlik yaşına çatmayanların cinayət törətməsi halları xeyli azalıb. Cinayətlərin sayının azalması bir sıra faktorlarla bağlıdır. Başlıca faktor şəxsi heyətə verilən təlimatların düzgün olması ilə əlaqədardır. Digər tərəfdən, bu, polisin qarşısına qoyulan vəzifəyə məsuliyyət baxımından ciddi yanaşması ilə bağlıdır.

**Məsuliyyət həm də polisin öz işinə ciddi yanaşması ilə əlaqədardır. Təbii ki, bütün bu göstəricilər polisin narahat gecələrinin məhsuludur. Başqa bir tərəfdən, əhali arasında profilaktik və maarifləndirmə işinin gücləndirilməsi də cinayətlərin azalmasına öz təsirini göstərib".**

***Vidadi ORDAHALLI***

**2020-ci il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində deputatlığa namizədlərin seçki şüarları sosial şəbəkədə geniş müzakirəyə səbəb olub. Bəzi namizədlərin seçdikləri şüarlar ictimai qınağa səbəb olub. Bir qisim namizədin şüarları isə bir-birini təkrarlayır.**

*”...bu bəsit kampaniyaları geridə buraxmaq lazımdır”*

# Deputatlığa namizədlər piar-mütəxəssislərə müraciət etmir, özləri isə yarıtmır...

***Məhərrəm Zülfüqarlı:** ”Elə namizəd var ki, tək bir şüarla seçkidə qalib gələ bilər”*



Yəni namizədlər yeni fikir, ideya ilə seçicini cəlb etmək əvəzinə, bir-birini təkrarlamaqla məşğuldurlar. Məsələn, "sizdən olanı seçin", "özünüzü seçin", "ailənizin üzvü", "sizin kimi", "sizdən biri" şüarları üstünlük təşkil edir.

Maraqlıdır, deputatlığa namizədlər piar mütəxəssislərlə işləyib uğur qazanmaq fikrində deyillər. Namizədlər elə digər namizədlərin şüarını təkrarlamaqla qalib olmaq istəyirlər. Ancaq xarici ölkələrdə isə vəziyyət fərqlidir. Əksər xarici ölkədə namizədlər seçkidə qalib gəlmək üçün bu işlə məşğul olan piar mütəxəssislərə müraciət edirlər.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) seçki qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, istənilən namizəd güclü şüarla qalib gələ bilər: "Namizədlər seçki kampaniyasına pul xərcləmək istəmirlər. Seçki kampaniyasına barmaqarası baxırlar. Elə namizəd var ki, tək bir şüarla hər şeyi həll edir. Amerika prezidentlərindən biri "reklama ehtiyacı olmayan prezident" şüarı ilə seçkilərin qalibi olub. Bizdə bu sahə həddindən artıq geridə qalıb. Azərbaycanda imicmeykerlər, demək olar, yoxdur. Elə bir şəxs varmı ki, ofis açsın, seçki kampaniyası ilə bağlı öz xidmətlərini təklif etsin, hansısa namizəd isə onunla müqavilə imzalayıb, imicinin formalaşdırılmasını ona həvalə etsin? Olsa belə, imicmeykerlərə pul vermirlər. Adətən namizəd öz qohum-əqrəbasını başına yığır, ekspertlərin etməli olduğunu qohumlarına tapşırır. Bu bəsit kampaniyaları geridə buraxmalıyıq. Ümumiyyətlə, ölkədə seçki ilə bağlı imicmeyker problemi yaşanır. Gənc imicmeykerlər olsa da, namizədlər onlara pul ödəyib, müqavilə bağlamaq istəmirlər".

Həmsöhbətimiz hesab edir ki, namizədlər seçki şüarlarına ciddi yanaşarlarsa, onların qalib olmaq şansı da yüksək olar. Ancaq ekspert onu da vurğuladı ki, seçkilərdə iştirak etmək istəyən namizədlərin əksəriyyətinin seçki texnologiyası, təbliğat-təşviqat kampaniyası haqqında bilikləri çox zəifdir.

***Günel CƏLİLOVA***

---

**Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Georgi Kutoyan ətrafında qalmaqal davam edir. Belə görünür ki, bu məsələ baş nazir Nikol Paşinyan üçün ciddi başağrısı olacaq. Çünki qətlin arxasında Paşinyan iqtidarının durmasına dair ehtimallar getdikcə artır.**

# Siyasi qətllər Paşinyan iqtidarının sonunu tezləşdirmək həddinə çatır...



Ermənistanın "Yerkir Tsirani" partiyasının sədri Zaruhi Postancyan bu xüsusda bildirir: "Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Georgi Kutoyan bu avtoritar sistemin qurbanıdır".

O qeyd edib ki, olayla bağlı intihar həddinə çatdırma maddəsi ilə cinayət işi açılıb, lakin istər öldürsünlər, istər də intihar həddinə çatdırsınlar, bunun adı qətldir: "Əlbəttə, hadisənin necə baş verməsi vacibdir, lakin biz qeyd etməliyik ki, keçmiş yüksək dərəcəli rəsmi öldürülüb".

Postancyanın sözlərinə görə, Kutoyan davamlı olaraq həyata keçirilən və davam edən qanunsuzluqların qurbanıdır:"2016-cı ildə Serj Sarkisyanın sərəncam verərək Kutoyanı MTX rəhbəri təyin etməsinə baxmayaraq, mən İnzibati Məhkəmədə bu sərəncama etiraz etdim, əlbəttə, məhkəmə qanunsuz olaraq proseduru qəbul etmədi, lakin cənab Kutoyan MTX direktoru standartlarına uyğun gəlmirdi. Cənab Kutoyan bu avtoritar sistemin qurbanıdır. O, davamlı olaraq həyata keçirilən və davam edən qanunsuzluqların qurbanıdır". "Alternativ" ictimai təşkilatının həmsədri Narek Mantaşyan da hadisənin sosial zəmində ola biləcəyi fikri ilə razılaşmayıb: "Keçmiş yüksək dərəcəli rəsminin intihara səbəb olacaq sosial probleminin olacağını düşünmürəm. Problem daha çox konkret hansı hallarda ölüm həddinə çatdırmaqla bağlı olaraq hüquqi müstəvidədir. Georgi Kutoyanın ölüm hadisəsi ilə əlaqədar intihar həddinə çatdırma maddəsi ilə cinayət işi açılıb. Məhz bu məqama daha çox meylliyəm. Bu gün artıq elə bir vəziyyətə sahibik ki, məxməri Ermənistanda artıq şübhəli vəziyyətdə ölmüş 3 yüksək dərəcəli zabit var. Bu, kifayət qədər narahatedicidir".

Digər erməni ekspert Hasmik Babacanyan da məsələnin kifayət qədər maraqlı olduğunu bildirir: "Ermənistan İstintaq Komitəsinin əldə etdiyi məlumatlara görə, 2019-cu il dekabrın sonlarında Kutoyan tək qeyd edilən mənzilə gedib, orada alkoqol istifadə etdikdən sonra qanuni qaydada özünə məxsus "Glock 34" tipli tapançadan qonaq otağı və mətbəxin ayırıcı divarına 35 nizamsız atəş açıb. Tapança Kutoyanın şəxsi silahı idi. Silahı ona Gürcüstan Təhlükəsizlik Xidmətinin rəhbəri mükafatlandırma qaydasına hədiyyə etmişdi. Mətbuatda çox danışılır, çox toxunulur ki, səsboğucu silaha bərkidilmişdi? Bir çoxları 35 atəş barədə qeyd edir, yaxşı, bəs qonşular dəvənin qulağında yatmışdılar, bir səs eşitmədilər? Təbii ki, bu sual qaldırılmalı və həmin istinaqın ictimaiyyət üçün açıq, şəffaf olmasını vurğulayan müvafiq qurumlar bu nöqtədən başlamalı idilər. Həm dekabrın sonlarında, həm də yanvarın 17-də atəşlər nişangaha bərkidilmiş eyni səsboğucudan açıldığı üçün (bu barədə danışılmır), çox güman ki, çoxlarını maraqlandıracaq kiçik bir sual: Kutoyanın tapançasının nişangahına bərkidilmiş səsboğucu yerindədir?". Bu vəziyyətin Paşinyan üçün qətiyyən əlverişli olmadığı aydındır. Amma o da aydın görünür ki, Ermənistanda qorxu atmosferi yaratmaq cəhdi var. Özü də ən maraqlısı budur ki, Paşinyan indiyə qədər Kutoyanın ölümü barədə danışmayıb. Məhz bu fonda ona qarşı ittihamlar da artır. Politoloq Elxan Ələsgərov isə qeyd edir ki, əslində, "Qarabağ klanı"nın gənc və perspektivli təmsilçisi olan Kutoyanın ölümü Ermənistanda terroçuluğun və siyasi zorakılığın yayılmasının təsdiqidir: "Onun adı Paşinyanın hakimiyyətə gəlməsindən bir neçə gün əvvəl prezident Sarkisyanın iqamətgahından məxfi sənədlərin çıxarılaraq məhv edilməsi prosesində hallanıb. 2018-ci ilin aprel-may hadisələri zamanı xüsusi xidmət rəhbəri olarkən Kutoyan Ermənistanda hansı qüvvələrin "məxməri inqilab" etdiyini və hakimiyyətin dəyişməsi prosesinin əslində necə baş verdiyini yaxşı bilirdi. Bundan əlavə, Sarkisyanı zərbə altna qoya biləcək sənədlərin məhvində birbaşa iştirak edib, hərbi sirləri, 2016-cı il aprel döyüşlərində məğlubiyyətin səbəblərini bilib, Paşinyan komandası ilə bağlı "kompromat"lara malik olub. Paşinyan hakimiyyətə gələn kimi dərhal Kutoyanı vəzifədən azad etdi. Xidmətin keçmiş direktoru vaxt itirmədən ABŞ-a yollandı və guya Kembricdə təhsil almağa başladı. 2019-cu ilin dekabrında gözlənilmədən Ermənistana qayıdan Kutoyan müxalifətə keçəcəyini açıqlamışdı.

Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktorunun ölümü Ermənistanda vəzifəli şəxslərin qətli-intiharı qanuni ardıcıllığına uyur. Belə ki, 2019-cu ilin sentyabrında Kotayk vilayətinin Bjni kəndindəki evində sabiq polis rəisi Ayk Arutyunyan ölü tapılmışdı, İrəvan polisinin sabiq rəisi Aşot Karapetyan isə Pyatiqorsk şəhərində fərdi pivəbişirmə sexində partlayış nəticəsində həlak olmuşdu. Bu halda Kutoyanın və Ermənistanın digər vəzifəli şəxslərinin ölümü-intiharının hansı mühitdə baş verməsini təhlil etmək lazımdır".

***Nahid SALAYEV***

# Azərbaycan gəncliyi ilə bağlı bulanıq niyyətin anonsu? - Prezidentin Davosda neytrallaşdırıcı əks gedişi...

**Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edib. Dövlət başçısı panelin moderatorunun suallarını cavablandırıb.**

***Yeganə Hacıyeva:** "Həmin sual ölkədə bu sahədə vəziyyətin test olunması, gəncliyin istək və məqsədlərində millilik, dövlətçilik ideologiyasına sadiqliyi səviyyəsinin yoxlanılması üçün idi"*



Ölkə başçısına ünvanlanan sualların əksəriyyəti gəncliyin cəmiyyətdəki rolu ilə bağlı olub. Bu xüsusda Prezident ölkəmizdə gənclərlə bağlı yürüdülən siyasətdən danışıb: "Biz onların nə istədiklərini dinləyərdik. Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, gənclər startap biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edib. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük. Səmimi danışsaq, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir. Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şuarlardan istifadə etmiş, lakin sonra vəd etdiklərini yerinə yetirə bilməmişdir. Əslində, onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə onu müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altında olur. İnsanlar onu seçir, lakin bir ildən sonra o, ona göstərilən etimadı itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilmişdir. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır".

Bunun ardınca İlham Əliyevə maraqlı bir sual ünvanlanıb. "Siz necə düşünürsünüz, Azərbaycandakı gənclər bu baxışı, regional təşkilatın bir hissəsi olmaq və həmin regional təşkilata suverenliyi həvalə etmək istəyini bölüşürlərmi? Azərbaycanda bu ideya yerli səviyyədə dəstəklənirmi?"

Ölkə başçısı bu suala tutarlı cavab verib. Ancaq diqqəti çəkən sualın quruluşudur. Aydın hiss olunur ki, Azərbaycan gəncliyi ilə bağlı hansısa layihə həyata keçirməkdə maraqlı olan güclər var. Hətta ölkəmizin gəncliyini hansısa təşkilata qatıb, onun suverenliyini belə əlindən almaq kimi planların olduğunu vurğulayırlar. Təsadüfi deyil ki, ölkə başçısı Qərbin müəyyən dairələrinin Azərbaycan gəncliyini özlərinə sərf edən istiqamətdə işlətmək, beyinlərini yumaq kimi planlarının olduğunu BDU-nun 100 illiyi ilə bağlı keçirilən tədbirdə söyləmişdi. Davosda verilən məlum sual həmin niyyətlərdən qaynaqlana bilərmi?

Avropadakı gənclər hərəkatı ilə yaxından tanış olan beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, moderator Avropa və Asiyanın kəsişməsində yerləşən ölkənin rəhbəri kimi Azərbaycan Prezidentinə daxili və xarici faktorları dəyərləndirməsi hesabı ilə strateji hədəflərin müəyyən edilməsinə yönəlik çoxsaylı sual verdi: "Bunlardan biri də məhz Azərbaycan gəncliyi, onun regional formatda fəaliyyəti, belə fəaliyyətin perspektivləri və gözləntiləri haqqında idi. Daha konkret desək, Azərbaycan gənclərinin regional təşkilatın bir hissəsi olmaq və regional təşkilatların mövcud coğrafiyada inkşafı və möhkəmlənməsi məqsədi ilə bir sıra siyasi təşəbbüslərin ora həvalə edilməsi ideyasının, ümumiyyətlə, mövcudluğu haqqında məlumat almağa yönəlik sual idi. Azərbaycanda belə ideyaların yerli səviyyədə dəstəklənməsi və sair.

Azərbaycanın və bizim gəncliyin əsas ideyası və ideologiyası suverenlik, müstəqillik və öz ehtiyatlarımıza güvənmək olmasını qeyd edən Prezident ölkə rəhbəri və xalqın lideri olaraq əsas hədəflərdən birinin Azərbaycanı özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevrilməsi olduğunu qeyd etdi. Bu günə qədər yürüdülən siyasətin prioriteti kimi iqtisadi müstəqilliyin əldə olunması da bu faktorun məhz siyasi müstəqillik üçün bünövrə kimi olmasıdır.

Prezident, həmçinin, qeyd etdi ki, Azərbaycanda beynəlxalq - regional qurumlarda təmsilçiliyimizlə bağlı hər bir məsələyə praqmatik yanaşma mövcuddur".

Ekspert bildirdi ki, sırf bu mövzuda Azərbaycan gənclərinin regional təşkilatlarda təmsilçiliyi, bunun müsbət tərəfləri və narahatlıqları haqqında danışmaq istərdi: "Zamanında bir çox nüfuzlu regional gənclər təşkilatında, onların idarə heyətində təmsilçiliyi olan biri kimi onu qeyd edim ki, Azərbaycanda çoxlu sayda gəncin istər dövlət xətti, istərsə də müstəqil formada dünyanın bir çox regional təşkilatında təmsilçiliyi mövcuddur və olub.

Regional təşkilatlar, əlbəttə, mən də daxil, üzvü olan gənclərə müasir dünyanın tələblərinə cavab verən, müasir, cəld, çevik komanda idarəetməsini öyrənmək, strateji kommunikasiya alətlərinə və onlardan istifadə vərdişlərinə yiyələnmək, yüksək səviyyədə əlaqələr qurmaq və ən əsası, daxili və xarici risq və perspektivlər faktorunun nəzərə alınması ilə regionda və dünyada gedən prosesləri dəyərləndirmək imkanlarını inkişaf etdirmək üçün unikal şanslar yaradır.

Lakin bu, müzakirə etdiyimiz mövzunun pozitiv tərəfləridir, bunun neqativ tərəfləri isə bu gənclərin regional təşkilatlarda kənar maraqlar üçün istifadə cəhdləridir. Onların ölkə daxilindəki siyasi-ictimai aktivliyinin beynəlxalq təşkilatlarda hökumətlərə təzyiq kimi, məsələn, etiraz aksiyalarında bir neçə saatlıq da olsa polis tərəfindən saxlanmasını və ya təsadüfən cüzi zədələnməsini beynəlxalq qurumların sessiyalarında hökumətlərə qarşı arqumentlər olaraq istifadə olunmasıdır.

Uzunmüddətli hesablarda isə ölkə daxilində kənar nüfuz agentləri kimi, cəmiyyətlərə yad dəyərlərin daşıyıcısı kimi, nüfuz liderlərinin yetişdirilməsi, bunun məntiqi axarı kimi yad dəyərlər daşıyıcısı olan alternativlərin yaranması və bunun üzərindən çox asanlıqla dövlətlərin milli maraqlarına zidd gedə biləcək liderlərin yetişdirilməsinə, belə liderlərin yönləndirə bildiyi cəmiyyətlərin və uğur qazanacağı hallar isə hökumətləri öz məqsədləri üçün idarə olunması perspektivləri güdürlər.

Məhz moderatorun Azərbaycan gəncliyinin suverenliyin bir qisminin regional təşkilatlara həvalə olunması fikrinin mövcudluğu haqqında sualı, ölkədə bu sahədə vəziyyətin test olunması, gəncliyin istək və məqsədlərində millilik, dövlətçilik ideologiyasına sadiqliyi səviyyəsinin test olunması və ölkə rəhbərliyinin bu haqda düşüncələrinin bəyan etməsi üçün idi".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın neft siyasəti hasilatçı ölkələri qiymət artımından xilas etdi...

**Neft bazarında baş verənlər burada qiymətlərin hələ müəyyən müddət yüksək həddə qalacağını göstərir. Bunun səbəbləri, artıq qeyd olunduğu kimi, Yaxın Şərqdə gərgin vəziyyət, Liviyada yeni qarşıdurma ehtimalının getdikcə güclənməsidir. Liviyanın neft istehsalı artıq minimum səviyyəyə düşüb.**

Xatırladaq ki, burada Xəlifə Haftarın silahlı qüvvələrinin boru kəmərini bağlamasından sonra Liviyanın ən böyük neft yatağında hasilat minimuma enib. Beləliklə də, OPEC-ə üzv Liviyadakı vətəndaş müharibəsini dayandırmaq üçün Berlində keçirilən konfransa baxmayaraq, bu ölkədə tədarük çatışmazlığı artmaqda davam edir. Liviya Milli Neft Korporasiyasının nümayəndəsinin sözlərinə görə, ölkənin neft hasilatı anbarlar tam dolduqdan sonra gündəlik 72 min barrel səviyyəsində məhdudlaşdırılacaq. Ötən şənbə günü Liviyada sutkalıq neft istehsalı 1,2 milyon barrel səviyyəsində idi. "Bloomberg"in məlumatına görə, bu göstərici 2011-ci ilin avqust ayından bəri ən aşağı səviyyədir. Mənbələrə görə, gündəlik 300 min barrel neft hasil edən "Sharara" yatağı anbarlar doldurulduqdan sonra istehsalı dayandıracaq. Bu da qiymətlərə təsir edir.

Amma prosesdə əsas rol oynayan məqamlardan biri OPEC-ə üzv və üzv olmayan ölkələrin birgə fəaliyyətidir. Qeyd edək ki, dünya bazarında neftin qiymətinin ucuzlaşması fonunda OPEC-ə üzv 14 ölkə və Azərbaycan da daxil olmaqla kartel üzvü olmayan digər neft istehsalçıları qiymətdə sabitliyin yaranması üçün 2016-cı ildən etibarən neft hasilatını azaltmağa başlayıb. Bu illər ərzində Azərbaycan "OPEC plus" formatında əməkdaşlığın fəal iştirakçılarından olub və götürdüyü öhdəlikləri artıqlaması ilə yerinə yetirib. Ötən il dekabrın 6-da isə "OPEC plus" üzrə gündəlik neft hasilatının daha 500 min barrel azaldılması barədə qərar qəbul edilib. Yeni "Əməkdaşlıq Bəyannaməsi"nə uyğun olaraq, Azərbaycanın öhdəliyi 27 min barrel müəyyən edilib. Bu ilin yanvarından etibarən birinci rübün sonunadək Azərbaycan gündəlik neft hasilatını 769 min barrel həcmində saxlamalıdır. Onu da xatırladaq ki, "OPEC plus" formatının müəllifi məhz Azərbaycandır. Elə prezident İlham Əliyevlə Davosda baş tutan görüşündə OPEC-in baş katibi Məhəmməd Barkindo da bunu xüsusi olaraq qabartdı:"Xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdi. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Biz




hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü. Biz ən pis vəziyyətin şahidi idik. Cənab prezident, sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq... Tarixdə ilk dəfə idi bu baş verirdi. Sizin rəhbərliyiniz, sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab prezident. Bu, bizim üçün çox önəmlidir və ötən beş ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalıb".

Hazırda hasilatçı ölkələrin böyük əksəriyyəti bazarı qorumaq məqsədilə müvafiq fəaliyyətin davam etdirilməsini, xüsusən də OPEC-ə üzv və qeyri-üzv ölkələrin işbirliyinin zəruri olmasını gündəmə gətirir. Çünki məhz bu şəraitdə neft bazarını siyasi təsirlərdən xilas etmək mümkün sayılır.

Hesab edilir ki, "OPEC plus" ölkələrinin addımı qarşıdakı dövr ərzində neftin qiymətini yüksək həddə saxlamağa xidmət edəcək. ABŞ-ın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs"ın 2020-ci ilə dair neftin qiyməti üzrə proqnozu da bunu təsdiq edir. Bank bildirir ki, bu il "Brent" markalı xam neftin bir barrelinin orta qiyməti 63 dollar olacaq. "Goldman Sachs"ın əvvəlki proqnozu isə 60 dollar idi. "Goldman Sachs" bu proqnozu məhz "OPEC plus" üzrə sutkalıq neft hasilatının azaldılmasına dair qərar qəbul edildən sonra verib.

Neft məsələləri üzrə rus ekspert İvan Danilov isə bildirir ki, "OPEC plus" formatı, xüsusən də burada Rusiya - Səudiyyə Ərəbistanı əməkdaşlığı neftin gələn il ərzində yüksək qiymət həddində qalmasını şərtləndirəcək: "OPEC plus" formatı effektivliyini təsdiqləyir və bura Səudiyyə Ərəbistanı vasitəsilə ABŞ artıq əvvəli kimi təsir göstərə bilmir".

*Tahir TAĞIYEV*

# Ermənistan prezidenti Osvensimin 75 illiyi konfransında iştirak üçün Yerusəlimə dəvət olunub - qəhrəmanlaşdırılan faşist ermənin əlində yəhudi qanları da var...

**Bu həftə dünyanın 40-dan çox lideri Osvensimin azad edilməsinin 75-ci ildönümünü bayram etmək üçün İsrailə toplaşacaq. Nə qədər maraqlı olsa da, həmin tədbirə dəvətlilər sırasında Ermənistan Prezidenti Armen Sarkisyanın da adı var.**

Ermənistan Prezidentinin dəvətlilər arasında olması ona görə maraqlıdır ki, həmin ölkənin özü faşizmi açıq şəkildə dəstəkləyir.

İsrail bütün dünyaya yəhudilərin faşizmdən daha çox əziyyət çəkdiyini təbliğ edir. Ancaq maraqlıdır ki, Hitlerin ən yaxın silahdaşı olan və əlinin yəhudilərin qanına batmasına kiminsə şübhəsi olmayan Qaregin Njdeyə heykəl ucaldan, onun ideologiyasını dövlətin idarə edilməsinə tətbiq edən bir ölkəyə İsrail indiyə qədər bir dəfə də olsun irad bildirməyib. İndi isə Ermənistan Prezidentini faşizmə lənət oxunacaq tədbirə dəvət edir.

Ermənistan mediası bunu böyük bayram kimi qeyd edir, hətta bildirirlər ki, analoji tədbiri 24 apreldə Ermənistan hökuməti də təşkil edib, İsrail Prezidentini ora dəvət etməlidir. İsrailin Ermənistanın faşist sevgisinə belə susqun qalması nə ilə bağlıdır və necə qiymətləndirilə bilər?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov qəzetimizə açıqlamasında bildirdi ki, bu məsələdə bir qədər obyektiv və soyuqqanlı olmaq lazımdır: "Bizim İsraillə çox yaxın münasibətlərimiz var. Hətta bu münasibətlər müttəfiqlik səviyyəsində belə dəyərləndirilir, özü də mühüm strateji sahələri əhatə edir. Araşdırdıqda məlum olar ki, Ermənistanın İsraillə münasibətləri bu səviyyədə deyil. Belə amillərdən istifadə edərək, Ermənistan münasibətləri korlamağa çalışacaq. Buna görə də biz bir qədər təmkinli olmalıyıq. Artıq İsrailin öz daxiliundə buna narazılıqlar var. Onların aparıcı mediasında bu amil sərt tənqid edilir. Biz də buna həm dövlət, həm də başqa kanallarla etirazımızı bildirməliyik. Xüsusilə də İsraildə olan çox güclü dayaqlara malik yəhudilərdən ibarət Azərbaycan diasporunun əlaqələrindən istifadə etməliyik. İsrail hakimiyyəti yekcins deyil. Orada da guya ermənilərin də soyqırıma məruz qalan millət olduğunu qabardanlar var. Buna görə ermənilərin iştirakını məqbul kimi sırımaq istəyirlər. İkinci amil isə Türkiyəyə İsrailin təzyiqi ki-

## *Elşən Həsənov: "Əks halda, onların faşizm üzərində qurduqları təbliğat tam faş oluna bilər"*



mi ola bilər. İstənilən halda, İsrail burada obyektiv olmalıdır. Əks halda, onların faşizm üzərində qurduqları təbliğat tam faş oluna bilər.

**Biz də ciddi işləməliyik. Sərt etiraz etməsək, sabah da ermənilər öz saxta soyqırım tədbirinə İsrail rəsmilərini dəvət edəcəklər. Bizim jurnalistlər də bu məsələdə fəal olmalıdırlar. İsrailin rəsmi qurumlarına Njde ilə bağlı aparılan siyasət təqdim edilib, suallar ünvanlanmalıdır. Görək, İsrail rəhbərliyi bu susqunluğunu nə ilə izah edəcək? Dilemma qarşısında qalmaları onları doğru qərar qəbul etməyə vadar edəcək".**

*Məhəmmədəli QƏRİBLİ*

# Azərbaycanın qızıl ehtiyatı böyük artım ərəfəsindədir

**Dünya bazarlarında qızıla getdikcə daha böyük marağın yaranması müşahidə olunmaqdadır. Aparılan hesablamalar göstərir ki, 2019-cu ildə beynəlxalq fondlardakı qızılın bazar dəyəri 2018-ci ilə nisbətən 37% artaraq 141 milyard dollara çatıb.**

Qeyd edək ki, 2019-cu ildə qlobal qeyri-müəyyənliklər və ticarət müharibələri investorları "təhlükəsiz liman" olan qızıla yönəldib. Bu fonda Azərbaycanda da bu məhsula marağın artması müşahidə olunur. Belə ki, Hesablama Palatası Dövlət Neft Fonduna (ARDNF) investisiya portfelinin tərkibində qızılın payını artırmağı tövsiyə edib. Palatanın ARDNF-in 2020-ci il üzrə büdcəsinə verdiyi rəydə də bu məsələyə xüsusi toxunulur. Belə ki, Palata Fonda bu il daha 49 min 705 kiloqram qızıl almağı məsləhət görüb. Bu fonda cari ildə Azərbaycanın daha böyük həcmdə qızıl alması tamamilə gözlənilən sayılır.

Məhz belə bir vaxtda İsveçrənin məhşur sərmayə bankı olan UBS qızılın qiymətinin cari ildə yüksələcəyini proqnozlaşdırır. Qızılın ötən ilin əvvəlindən bəri 18% bahalaşdığını qeyd edən bank analitikləri bildirir ki, dünyada zəif iqtisadi artım, aşağı faizlər qızıl saxlamağı daha sərfəli edir. Siyasi qeyri-müəyyənliyin qızıla marağı daha da artıra biləcəyini qeyd edən bank bu məhsulun alınmasının sərfəli olduğunu bildirir. Fransanın beynəlxalq bank qrupu "BNP Paribas" qızıl qiyməti proqnozlarını yüksəldib. Quruma görə, qiymətli metalda orta qiymət 2020-nin ilk rübündə 1600 dolları aşacaq. Bankın əmtəələrin tədqiqatı departamentinin rəhbəri Harri Tçilinguirian bildirir: "ABŞ Federal Ehtiyat Sisteminin 2020-ci ilin iyun arasında gedəcəyi 25 bəndlik faiz endiriminə yönəlməsinə görə qızıl bahalaşacaq. Bu da qızıl saxlamağın cazibəsini artıracaq".

Qızılın qiymətinin artması proqnozları fonunda qızıla investisiyaların da həcmi artıb. Mərkəzi bankların ardınca birjalar, həmçinin fondlar qızıl alışını həyata keçirir. Ümumdünya Qızıl Şurasının məlumatına görə, 2018-ci ildə mərkəzi bankların xalis qızıl alışı əvvəlki ildən 73,8% artaraq 651,5 tona çatıb. Şuranın məlumatına görə, ötən il də dünyada investisiya aləti kimi qızıla tələbat 3% artaraq 2 855 ton olub. Məlumata əsasən, illik müqayisədə isə investorların bu qiymətli metala tələbatı 10% artıb. Qlobal fondlar da qızıla investisiyalarını artırıblar. Ekspertlər bildirir ki, tələbatın artması səbəblərindən biri qızılın bir növ müdafiə aktivi kimi istifadə edilməsidir. Yəni fond bazarında səhmlərə, riskli aktivlərə investisiya edəndə onların dəyəri itərsə, risqdən qaçmaq üçün qızıl almağa başlayırlar. Bu mənada, cari ildə də Azərbaycanın qızıla böyük sərmayə yatırması tamamilə gözlənilən sayılır. Xatırladaq ki, Azərbaycanın Dövlət Neft Fondu əsas maliyyə xəzinəsi üçün "sarı metal"ın alışına 1 fevral 2012-ci ildən başlayıb. İki il ərzində 30,18 ton qızıl alınıb. Neft Fondu 2014-2017-ci illərdə qızılın alınmadığını bəyan edib. Azərbaycan hökuməti tərəfindən qızılın alışının ikinci mərhələsi 2018-ci ilin ikinci yarımilində bərpa edilib və ilin sonunadək 21 tona yaxın qızıl alınıb. ARDNF, artıq planlaşdırıldığı kimi, 100 tona yaxın fiziki qızıl əldə edib. Eyni zamanda, dünya bazarında qızılın qiyməti ölkədə "sarı metal" istehsalının rentabelliyinin artırılmasına və Dövlət Neft Fondunun aktivlərinin dəyərinin artmasına kömək edir. Ölkədə hasil edilən qızılın da əsas alıcısı ARDNF və Mərkəzi Bankdır. Bu da o deməkdir ki, Azərbaycanın valyuta ehtiyatlarında qızılın payı daha da artacaq. Ölkəmizin sahib olduğu ABŞ istiqrazlarının satışı fonunda əldə edilən gəlirə də qızıl alınması proqnozlaşdırılır.



Yuxarıda qeyd olunduğu kimi, hazırda qeyri-müəyyən geosiyasi vəziyyət qızılın digər aktiv növlərinə, o cümlədən daşınmaz əmlaka və qiymətli kağızlara nəzərən ucuz olması və qızıl hasilatının son illər nisbətən azalması onun qiymətinin artacağını proqnozlaşdırmağa əsas verir. Bu vəziyyətdə Azərbaycanın da valyuta ehtiyatlarının tərkibində qızılı artırması məqbul hal sayılır. Bunu digər ölkələr də edir. Eləcə də geosiyasi və geoiqtisadi vəziyyətin getdikcə pisləşməsi, gələcək perspektivlərin qeyri-müəyyənliyi fərdi və institusional investorları da qızıla yönəldir.

Qızılın qiymətinin artmasının digər səbəbi isə, yuxarıda qeyd olunduğu kimi, valyuta bazarında müşahidə edilən çalxalanmalar fonunda investorların öz pullarını daha az risqli istiqamətə yönəltməsi ilə bağlıdır. Bunlar qarşıdakı dövrdə də qızılın bahalaşmaqda davam edəcəyini göstərir. Treyder tələbatın artmasının digər səbəbi olaraq ABŞ-la Çin arasında ticarət müharibəsini, həmçinin bir çox ölkələrin dollardan asılılıqlarını azaltmaq üçün dollar ehtiyatlarını qızıla çevirməsi faktorunu göstərir. Hətta sadə insanlar da 2020-ci ildə iqtisadi zəifləmə olacağı gözləntisi ilə qızıla investisiyalarını artırır.

***Tahir TAĞIYEV***

# Türkiyədə qadağan olunub, Azərbaycanda marketlərdə satılır - "Rivera" zeytun yağı...

**"Rivera" markalı zeytun yağının istifadəsinə Türkiyədə qadağa qoyulub. Adıçəkilən ölkədə bu yağdan istifadəyə icazə verilmir. Həmin yağın insan sağlamlığı üçün təhlükəli olduğu bildirilir. Qeyd edək ki, Türkiyədə Kənd və Meşəçilik Nazirliyi "Rivera" zeytun yağının satışını insan həyatı üçün təhlükə vəd edən maddələrə görə qadağan edib.**




Ancaq bizim marketlərdə "Rivera" markalı zeytun yağ hələ də satışdadır. Qeyd olunan yağ Bakının "Araz" marketlər şəbəkəsində satılır.

Maraqlıdır, Azərbaycanda bu məhsulun yığışdırılmama səbəbi nədir?

"Azad İstehlakçılar" İctimai Birliyinin rəhbəri Eyyub Hüseynov bildirdi ki, aşkar olunan yağ zərərli olan partiya mala aid olmaya bilər. Bunu müəyyənləşdirmək üçün öncə AQTA araşdırma aparmalıdır: "Bu partiya" sözü mala aid olan anlayışdır. Demək olmaz ki, bir marka elə həmişə təhlükəlidir. Ola bilsin ki, aşkar olunan yağ həmin partiya mala aid deyil. Bunu AQTA araşdırmalıdır. Əgər həmin partiya malından Azərbaycan bazarında varsa, əlbəttə ki, çıxarılması üçün cəld mexanizm yoxdur. AQTA yalnız ictimai məlumat verməklə problemi bildirir. Amma məlumat geniş şəkildə işlənib hazırlanmalıdır ki, məhsulu bazardan geri yığmaq mümkün olsun. Mallar məhv edilirsə, kütləvi şəkildə məhv edilməlidir.

## *Eyyub Hüseynov: "Ölkədə təhlükəli malın bazardan çıxarılması üçün cəld mexanizm yoxdur"*

malı, mütləq Qida Təhlükəsizliyi Agentliyi bununla bağlı iş aparmalıdır. Ölkədə təhlükəli malın bazardan çıxa-

## *"Bəzən belə mallar bazardan çıxarılır, ayrı-ayrı qablara tökülür və yenidən istifadəyə verilir"*

Təəssüf ki, bu məsələ də qaranlıq qalır və bəzən belə mallar bazardan çıxarılır, ayrı-ayrı qablara tökülür və yenidən istifadəyə verilir. Ölkədə zərərli mallar məhv edilməsi yox, Lomonosovun qanunu işləyir, yəni heç nə dəyişmir, maddə bir haldan digər hala çevrilir".

***Günel CƏLİLOVA***

# Seçkidən sonra Azərbaycanda ömürlük məhbuslarla bağlı hansı yeniliklər olacaq...

**Səadət Bənənyarlı:** *”...kimlərin işinə baxılacağı haqqında heç nə deyə bilmərəm”*

**Azərbaycanda ölüm hökmü ləğv edildikdən sonra cəmiyyət, dövlət üçün çox təhlükəli, ağır cinayətlər törətmiş şəxslərin ömürlük həbs cəzasına məhkum edilməsi halları gerçəkləşdirildi. Bu gün cəmiyyətdə ömürlük məhbusların və onların yaxınlarının dövlətdən, hüquq sistemindən əsas umacağı ömürlük həbs cəzasının müddətli cəza ilə əvəzlənməsidir.**

Qobustan həbsxanasında ömürlük həbs cəzası çəkən məhkumlar ömürlük həbs cəzasının 30 ilədək azadlıqdan məhrumetmə ilə əvəz olunmasını istədikləri haqqında söz-söhbətlər yayılıb. Həm yerli KİV-də, həm də cəmiyyətdə belə fikirlər var ki, ömürlük həbs cəzasına məhkum olunanların cinayət işinə yenidən baxılacaq. Dəqiqləşdirilməmiş məlumatlara görə, bu hələlik təxminən 20-yə yaxın "ömürlü"yü əhatə edəcək.

Məlumatı İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğlu da təsdiqləyib. O qeyd edib ki, Azərbaycanda "ömürlük"lərin cinayət işinə yenidən baxılmasına zərurət yaranıb. Bundan başqa, N.Cəfəroğlu mətbuata açıqlamasında vurğulayıb ki, fevral ayının 9-da keçiriləcək növbədənkənar parlament seçkilərindən sonra Azərbaycanda Qobustan qapalı tipli həbsxanasında ömürlük cəza çəkən məhbusların cinayət işlərinə yenidən baxılması nəzərdə tutulur.

"Ömürlük həbs həyatı yaşayanlar bizə müraciət edirlər. İşçi Qrupuna daxil olan hüquq müdafiəçiləri kimi, biz məsələni mütəmadi olaraq rəsmi səviyyədə qaldırırıq. Bizə problemə parlament seçkilərindən dərhal sonra baxılması haqqında vəd verilib".

2017-ci il fevralın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" imzaladığı Sərəncamın 20 ildən çox cəza çəkənlərə də aid olacağı haqqında məlumat verilmişdi.

N.Cəfəroğlu bildirib ki, ömürlük həbs cəzası çəkənlərin işinə onların törətdikləri cinayətin ağırlıq dərəcəsindən asılı olaraq baxılacaq. "Hazırda bu məsələ gündəmdədir. Xüsusilə ağır cinayətlərə görə məhkum olunanlara qarşı yumşalmanın şamil olunacağını isə gözləmək lazım deyil" - deyə o vurğulayıb.

Ömürlük məhbusların cinayət işlərinə yenidən baxılması nə üçün seçkidən sonraya saxlanıb? Təxminən nə qədər ömürlük məhkumun cinayət işinə yenidən baxılacaq?

İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun katibliyində təmsil olunan hüquq müdafiəçisi Səadət Bənənyarlı "Bakı-Xəbər"ə bildirdi ki, növbədənkənar parlament seçkilərindən sonra ömürlük məhbusların cinayət işinə yenidən baxılması zərurəti yaranıb, onların özləri və ailə üzvləri bununla bağlı tez-tez hüquq müdafiəçilərinə müraciət edirlər: "Qanunvericiliyə əsasən, 25 ildən sonra ömürlük məhkumların işinə yenidən baxılması əks olunub. Yəni qanunvericilikdə onların cinayət işlərinə yenidən baxılmasına imkan yaradılıb. Amma çox nadir hallarda bu hüquq təmin olunur və ömürlük mıəhkumların işi yenidən məhkəməyə çıxır. Son illərdə belə hadisə bir dəfə baş verib. Amma bunun olması çox yaxşıdır. Bu, ömürlük cəzaya məhkum edilmiş şəxslər üçün ümid yaradır ki, cəza müddətindən müyyən zaman keçdikdən sonra onların cinayət işinə baxılacaq, cəzalarının yüngülləşdirilməsi mümkün olacaq. Ömürlük məhbusların cinayət işinə növbədənkənar parlament seçkilərindən sonra baxılacaq, amma bunun hansı şəkildə ediləcəyi məlum deyil. Yəni bu əfvlə, yaxud digər hansısa bir formada həyata keçiriləcək, bu barədə bir söz deyə bilmərəm. Bu haqda məndə məlumat yoxdur".

S.Bənənyarlı qeyd etdi ki, ömürlük həbs cəzasına məhkum edilən şəxslər arasında həbs müddəti 25 ili keçənlər də var. Ömürlük məhbusların həbs müddətinin 30 ilə endirilməsinə gəlincə, S.Bənənyarlı bildirdi ki, bu, bütün ömürlük məhbuslara şamil edilə bilməz, çünki "ömürlük"lər arasında elələri var, bu onlara aid edilməməlidir. "Ömürlük məhbusların cəzasının müəyyən müddətlik həbs cəzası ilə əvəz edilməsi bütün ömürlük məhbuslara aid edilə bilməz. Bu məsələyə şəxsin törətdiyi cinayətin xarakterinə uyğun baxılmalıdır. Elə məhkumlar var ki, vaxtilə onlara güllələnmə kəsilib, amma sonradan bu, ömrülük cəza çəkmə ilə əvəzlənib. Bu da Azərbaycanın Avropa Şurasına daxil olarkən üzərinə götürdüyü öhdəliklərlə əlaqədardır. Hesab edirəm ki, ömürlük cəzanın olmaması düzgün deyil, ömürlük cəza olmalıdır. Çünki elə cinayətlər var ki, onları bağışlamaq mümkün deyil. Amma elə də cinayətlər var ki, onları törədən şəxslərin ömürlük cəzasının müddətli cəza ilə əvəzlənməsi mümkündür" - deyə S.Bənənyarlı qeyd etdi.



*”Bu, ömürlük cəzaya məhkum edilmiş şəxslər üçün ümid yaradır ki, cəza müddətindən müəyyən zaman keçdikdən sonra onların cinayət işinə baxılacaq, cəzalarının yüngülləşdirilməsi mümkün olacaq”*

Cinayət işinə yenidən baxılacaq məhbusların sayına gəlincə, S.Bənənyarlı bu haqda heç bir fikir söyləməyin mümkün olmadığını dedi: "Ömürlüklər"lə bağlı məhkəmə orqanlarına müraciət olunur və ictimaiyyət yalnız həmin şəxslərin yaxınları, vəkilləri barədə məlumat ala bilir.

**Seçkidən sonra ömürlük məhbusların cinayət işinə baxılacaq, amma burada konkret olaraq hansı yeniliklərin olacağı, kimlərin işinə baxılacağı haqqında heç nə deyə bilmərəm " - deyə hüquq müdafiəçisi qeyd etdi.**

***İradə SARIYEVA***

**İqtisadiyyatı, xüsusən də özəl sektoru daha çox vəsaitlə təmin etmək üçün bank sektorunun daha artıq vəsait ayırması hələ də xüsusi diqqət mərkəzindədir. Digər bir mühüm məqam isə bankların ayırdıqları kreditlərin faiz dərəcələrinin aşağı salınmasıdır.**

# Bu il bank kreditlərinin xeyli ucuzlaşacağı gözlənir...

Proseslərin inkişaf axarı cari il ərzində bu sahədə Mərkəzi Bankın daha fəal siyasət yürüdəcəyini deməyə əsas verir. Əslində, bunun ilkin anonsları Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunları ilə bağlı keçirilmiş müşavirədə verilib. Həmin vaxt Mərkəzi Bankın sədri Elman Rüstəmov belə bi məqama diqqət çəkdi ki, keçən il pul siyasətinin yumşaldılması ilə də xarakterizə olub: "Ötən il biz 8 dəfə uçot dərəcəsini müzakirə edib, onun 7-də faiz dərəcələrini aşağı salmışıq. Bütövlükdə, biz bu siyasətin ümumi faizlərə də təsirini görürük. Son iki ildə xüsusi olaraq biznes kreditləri üzrə faiz dərəcəsinin 5 faiz aşağı düşdüyünü görürük. Təxminən 16 faizdən 11 faizə düşüb. Digər istiqamətlərdə də faiz dərəcələrinin tədricən aşağı düşdüyünü görürük. Təbii ki, bunun səviyyəsi bizi hələ qane etmir və bu istiqamətdə işlər davam etdiriləcək".

Son iki ildə uçot dərəcəsi 15 faizdən 7,5 faizə salınıb. Amma yuxarıda qeyd olunduğu kimi, kredit faizləri hələ də qənaətbəxş deyil. İndi yaranmış vəziyyətdə gündəmə gələn məsələlərdən biri iqtisadi fəallığı daha da canlandırmaq, bu prosesdə maliyyə sektorunun iştirakını genişləndirməkdir. Bunun üçün cari ildə baş bankın uçot dərəcəsini yenidən aşağı salması istisna olunmur. Ekspertlər hesab edir ki, uçot dərəcəsinin yenidən enməsi barədə qərar qəbul edilsə, bu, ilk növbədə kreditlərin müəyyən qədər ucuzlaşmasına, iqtisadiyyata banklar tərəfindən daha çox vəsait yönəldilməsinə səbəb olacaq. Burada məlumat üçün qeyd edək ki, uçot dərəcəsi Mərkəzi Bankın ölkənin digər banklarını pul kütləsi ilə təmin etməsidir. Yəni burada Mərkəzi Bank kommersiya bankları və digər maliyyə təşkilatlarına kredit verir, onlar isə öz növbəsində həm adi vətəndaşları, həm də müxtəlif şirkət və təşkilatları kreditlə təmin edir. Deməli, uçot dərəcəsi aşağı düşdükcə, kredit faizləri də ucuzlaşmalıdır. Elə iqtisadçı-ekspert Rəşad Həsənov da vurğulayır ki, ümumiyyətlə, uçot dərəcəsi faizlərin aşağı salınması və pul kütləsinin genişləndirilməsi üçün istifadə olunan alətlərdən biridir: "Bu baxımdan Azərbaycan Mərkəzi Bankının uçot dərəcəsini azaltması müəyyən mənada bazara təsir göstərir. Amma digər ölkələrdə müşahidə etdiyimiz kimi, faizlər baxımından ciddi təsirləri olmur. Çünki hazırda Azərbaycanda uçot dərəcəsi çox zəif istifadə oluna bilən alətdir. Uçot dərəcəsinin təsirləri o zaman daha yüksək olur ki, mərkəzi banklarda mərkəzləşdirilmiş kreditlərin həcmi çox olur. İndiki halda Mərkəzi Bankın mərkəzləşdirilmiş kreditlərinin az olması uçot dərəcəsini aşağı salmaqla bu prosesə təsir imkanlarını məhdudlaşdırır. Banklararası bazarın inkişaf etməsi və Mərkəzi Bankın mərkəzləşdirilmiş kreditlərinin artması bu alətin daha effektiv istifadə olunmasına gətirib çıxara bilər". O bildirib ki, hazırda ölkəmizdə bank sektorunda müəyyən izafi likvidlik var: "Bu vəsaitlərin bir qismi Mərkəzi Bankın keçirdiyi depozit hərraclarında yerləşdirilir. Uçot dərəcəsinin aşağı düşməsi son nəticədə depozit hərraclarında faiz dərəcələrinin aşağı düşməsinə gətirib çıxarıb. Növbəti dövrlərdə bu prosesin davam etdirilməsi faizlərin daha da aşağı düşməsinə gətirib çıxaracaq və banklar bu vəsaitləri Mərkəzi Bankın depozitlərində yerləşdirməkdə maraqlı olmayacaq. Dolayısı ilə bu vəsaitlərin bir qismi məcburən bazara yönləndirilə bilər, yəni kredit portfelinin genişlənməsinə gətirib çıxara bilər. Bu da, öz növbəsində, müəyyən qədər təklif şərtlərinin yumşalmasına, rəqabətin artmasına və beləliklə faizlərin cüzi də olsa aşağı düşməsinə təsir göstərə bilir".

Ekspert qeyd edib ki, uçot dərəcəsinin aşağı düşməsi faizlərin enməsinə təsir göstərə bilər: "İstər biznes kreditləri olsun, istər istehlak kreditləri olsun, bu proses paralel gedir. Amma uçot dərəcəsinin 15 faizdən 7,5 faizədək azaldılmasının təsirlərini ölçsək, faizlərə təsirinin cüzi olduğunu görürük, yəni bazarda kredit faizlərində bunun effekti zəifdir. Amma növbəti dövrlərdə Mərkəzi Bank uçot dərəcəsini aşağı salmaqla təsir imkanlarını artırmağa, müəyyən qədər bazarda faizlərin aşağı düşməsini təmin etməyə çalışacaq. Bunun üçün də əsas yollardan biri maliyyə bazarlarının liberallaşdırılması ola bilər, yəni bazar iştirakçılarının sayının artması, beynəlxalq maliyyə korporasiyalarının bazara daxil olmasına şəraitin yaradılması rəqabəti dərinləşdirə bilər və vəsaitlərin bazara daxil olması ilə faiz dərəcələrini azalda bilər. Uçot dərəcəsi hər bir ölkədə müxtəlifdir. Məsələn, Avropa İttifaqında uçot dərəcəsi 0,75 faiz ətrafında dəyişir.

Rusiyada uçot dərəcəsi 7 faizdir. Türkiyədə isə uçot dərəcəsi yüksəkdir, təxminən 12 faiz ətrafındadır". Bundan başqa o da faktdır ki, ölkədə inflyasiya səviyyəsi də uçot dərəcəsinin endirilməsinə imkan verir. Qeyd olunduğu kimi, uçot dərəcəsi aşağı olarsa, müvafq olaraq kredit faizləri aşağı düşür və kredit əhali üçün daha əlçatan olur. Belə vəziyyət, öz növbəsində, iqtisadi fəallığı artırır. Hesab edilir ki, banklar könüllü şəkildə kreditlərin faizini aşağı salmasa, məsələyə baş bank tərəfindən mütləq şəkildə inzibati müdaxilə olmalıdır.




**Ramil QULİYEV**

**Məlum olduğu kimi, yanvarın 22-də kirayə mənzillərin satışı gerçəkləşməli idi. Ancaq həmin günün səhərisindən etibarən İpoteka və Kredit Zəmanət Fondunun elektron ipoteka sistemində problemlər yaranmağa başladı.**

# Kirayə mənzillərin də elektron satış sistemində problem yarandı - təsadüf, ya...



***Osman Gündüz:** "...təəssüf və təəccüb doğurur"*

***Natiq Cəfərli:** "...bu işi çox ucuz bir platformada görüblər"*

Belə ki, kirayə mənzillər üçün qeydiyyatdan keçmək istəyən vətəndaşlar Elektron Hökümət Portalına (www.e-gov.az) inteqrasiya olunmuş "Elektron İpoteka və Kredit Zəmanət" sistemində (EİKZS) yaradılan elektron kabinetə daxil ola bilsələr də, qeydiyyatdan keçə bilməyiblər. Sistem çökdüyü üçün vətəndaşların kirayə mənzili almaq istəyi gerçək olmadı.

İpoteka və Kredit Zəmanət Fondu yaranan problemlə bağlı məlumat yayaraq bildirib ki, elektron müraciətlərin qəbulu prosesində "Elektron hökumət" portalına istifadəçi daxilolmalarının və aparılan əməliyyatların sayının kütləvi xarakter daşıması və digər texniki səbəblərdən portal artıq yüklənməyə məruz qalıb: "Nəticədə "Elektron ipoteka və kredit zəmanət sistemi" (Elektron sistem) üzrə müraciətlərin qəbulunda problemlər yaranıb.

Hazırda fond aidiyyəti təşkilatlarla birlikdə Elektron sistemin dayanıqlı, etibarlı və təhlükəsiz fəaliyyətinin bərpası və sistemin hər bir istifadəçisinə bərabər şəraitin təmin olunması üçün bütün zəruri tədbirləri həyata keçirir".

Məsələ ilə bağlı fikir bildirən Azərbaycan İnternet Forumunun prezidenti, ekspert Osman Gündüz bildirdi ki, İpoteka və Kredit Zəmanət Fondu yanvarın 22-də saat 10-dan kirayə evlər üçün elektron formada müraciətləri qəbul etməli idi: "Əldə etdiyim məlumata görə, müraciətlərin sayı çox olduğundan, İpoteka və Kredit Zəmanət Fondunun serveri yüklənməyə tab gətirməyib və çöküb. Hazırda "e-gov" (elektron hökumət) portalından e-ipoteka sisteminə "ASAN imza" ilə daxil olmaq mümkün deyil. "E-gov" sektorunda bu tip hadisə artıq 2-ci dəfədir təkrarlanır. Ötən il də güzəştli mənzillərin onlayn satışı ilə bağlı MİDA (Mənzil İnşaatı Dövlət Agentliyi) informasiya sistemində oxşar hadisə baş vermişdi və sonradan MİDA digər dövlət qurumlarının köməyilə problemi aradan qaldıra bilmişdi. Dövlət sektorunda baş verən bütün bu tip hadisələrdən sonra yenidən hansısa bir dövlət qurumunda oxşar halın təkrarlanması təəssüf və təəccüb doğurur. Düşünürəm ki, səlahiyyətli qurumlar, cavabdeh şəxslər ciddi məsuliyyətsizlik ediblər. Fikrimcə, VXSİ Dövlət Agentliyi, dövlət resurslarının təhlükəsizliyinə cavabdeh olan XDMX yanında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi dövlət qurumları baş verənləri araşdırmalı və ciddi tədbirlər görməlidir. Ümumiyyətlə, bu tip dövlət layihələrinin start vəziyyətindən öncə onların informasiya resurslarının adıçəkilən qurumlar tərəfindən audit olunmaması, test edilməməsi də doğru yanaşma deyil. Çünki "e-gov" mərkəzi kirayə evlərlə bağlı layihəyə start verməzdən öncə ötən dərsləri nəzərə alaraq, sistemin test olunması üçün fonda göstəriş verməli idi. Həm də ona görə ki, artıq bu qurumlar bir dəfə belə bir problem yaşandığını bilirlər".

İqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, İpoteka və Kredit Zəmanət Fondunun yaratdığı sayt sayəsində minlərlə manat pul silinib: "Evlərin baha qiymətə satılması bunun sosial layihə olmasına son qoydu. Biabırçılıqdır. Belə çıxır ki, fond heç bir hazırlıq görmədən, ciddi müzakirələr aparmadan bu fəaliyyətə başlayıb. Bunun da nəticəsi ortadadır. Həm qiymətlərlə, həm də şərtlərlə bağlı insanlar arasında böyük narazılıq yaranıb. Şərtlər kifayət qədər ağırdır. Əslində, öncədən bunun sosial layihə olduğu elan olunmuşdu. Ehtiyacı olan insanların, gənc və aztəminatlı ailələrin mənzil problemini yoluna qoyacaqdı. Amma açıqlanan şərtlər göstərdi ki, bu heç də belə deyil. Aylıq və ilkin ödənişlərin yüksək olması onu sosial layihə mahiyyətindən tamam kənarlaşdırdı. O ki, qaldı infrastruktur olaraq hazır olmamalarına, bu da onu sübut edir ki, məsələyə qeyri-ciddi yanaşıblar. Əgər normal, texniki qaydalara əməl edərək öz səhifələrini qura bilsəydilər, çoxsaylı müraciətlər zamanı belə, texniki problem yaşanmazdı.

**Bəlkə də araşdırsaq, görəcəyik ki, fond bu səhifəni qurmaq üçün minlərlə manat pul silib. Amma səhifənin normal fəaliyyəti yoxdur. Əslində isə səhifə normal yığılsaydı, gün ərzində 100 minlərlə müraciət olsaydı da, saytda problem olmayacaqdı. Deməli, bu işi çox ucuz bir platformada görüblər. Nə texniki, nə də sosial cəhətdən bu məsələni müzakirəyə çıxarıb, yaxşı inkişaf etdirmək üçün heç bir iş görülməyib. İnsanlar bu layihəyə ümid bəsləyirdilər, amma sanki bir biznes layihəsi kimi təqdim olundu".**

*Günel CƏLİLOVA*

---

**Azərbaycanda xarici kapitallı şirkətlərin sayı artıb. Belə ki, ötən il 2882 100 faiz xarici kapitallı və 359 birgə kapitallı şirkət təsis edilib. Bu da 2018-ci illə müqayisədə 69 faiz çoxdur. Ləğv edilən şirkətlərin sayı 2019-cu ildə təsis edilən xarici kapitallı şirkətlərin sayından dəfələrlə azdır.**

# Azərbaycanda qeydiyyata alınan xarici şirkətlərin sayı 69 faiz artdı



***Fikrət Yusifov:** "Bu, ilk növbədə, Azərbaycanın reytinq agentliklərində yerinin daha üstün mövqelərdə olması ilə bağlıdır"*

Sözügedən şirkətlərin əksəriyyəti xidmət sektorunda fəaliyyət göstərir. Belə ki, ötən il əsas kapitalında xarici kapital olan şirkətlərin əsas fəaliyyəti xidmət sahəsi olub - 40,8 faiz. Bunun ardınca ticarət - 24,5 faiz, tikinti - 11,2 faiz gəlir. Xarici kapitallı şirkətlər əvvəllər ölkədə az idi. Xarici kapitallı şirkətlərin sayının çoxalması ölkədə normal investisiya mühitinin olmasından xəbər verir. Bunun nəticəsidir ki, bir il ərzində belə ciddi artım qeydə alınıb. Bu istiqamətdə gedən proseslər onu göstərir ki, xarici kapitallı şirkətlər adətən neft sektorunda olub. Son dövrlər isə qeyri-neft sektoruna diqqət artdığından, artıq o sektorda da şirkətlər yaranmağa başlayıb. Müşahidələr göstərir ki, xüsusilə də xarici şirkətlərin və ya brendlərin nümayəndəlikləri, filialları açılır.

Maraqlıdır, bəs ekspertlər bu artımı necə dəyərləndirirlər? Bir il ərzində bu şirkətlərin sayının belə çoxalması nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, Azərbaycanda xarici kapitallı şirkətlərin sayının artması bir sıra amillərlə bağlıdır: "Bu, ilk növbədə, Azərbaycanın reytinq agentliklərində yerinin daha üstün mövqelərdə olması ilə bağlıdır. Beynəlxalq nüfuzlu təşkilatların, o cümlədən, Dünya Bankının "Doing Business", Davos Forumunun hesabatında və digər bu kimi hesabatlarda Azərbaycanın üstün yerdə qərarlaşması xarici şirkətlərin diqqətini cəlb edir. İslahatlar prosesində əldə olunan nəticələr kifayət qədər cəlbedicidir və bu, xarici investorların marağına səbəb olub. Məsələ ondadır ki, Azərbaycan iqtisadiyyatında həyata keçirilən real islahatları və onların nəticələrini xarici şirkətlər çox ciddi şəkildə kənardan izləyirlər. Müxtəlif mənbələrdən bu məlumatları əldə edirlər. Digər tərəfdən, ölkədə bu yöndə görülən işlər də buna öz müsbət təsirini göstərir. O cümlədən, Prezident İlham Əliyev səviyyəsində Davos Forumunda Azərbaycanın bilavasitə təqdim olunması, ölkə reallıqlarının iş adamlarına və biznes mühitinə çatdırılması öz bəhrəsini verir. Yəni yüksək səviyyəli təqdimat da buna öz təsirini göstərir. Bütün bunların nəticəsində bir il ərzində xarici kapitallı şirkətlərin sayı xeyli artıb. Hesab edirəm ki, 2020-ci ildə bu yöndə daha yaxşı nəticələrin əldə edilməsinin şahidi olacağıq".

*"İslahatlar prosesində əldə olunan nəticələr kifayət qədər cəlbedicidir"*

*Vidadi ORDAHALLI*

# Magistratura və doktorantura dərslikləri hələ də yoxdur

**Azərbaycan ali məktəblərində, o cümlədən də Milli Elmlər Akademiyasının institutlarında magistratura və doktorantura pilləsi üzrə təhsil verilir. Ali məktəblərə və akademiyaya bu səlahiyyətlərin verilməsi ölkədə kadr potensialının güclənməsinə şərait yaradır. Bu müsbət haldır. Amma bu sahədə mənfi hallar daha çoxdur.**

Əsas problem isə ali məktəblərin magistratura və doktorantura pilləsində təhsil alanlar üçün müvafiq dərsliklərin olmamasıdır. Hər ali məktəbin özünün bu pillələr üzrə xüsusi dərsliklərinin olması vacib olsa da, ali təhsil müəssisələri bu dərslikləri yaratmağa tələsmirlər. Onlar magistr və doktorantlara bakalavrlar üçün olan dərsliklərdən istifadə etməklə "bilik" verməyə çalışırlar. Ali məktəblərin magistratura və doktorantura üzrə dərsliklər hazırlamasına mane olan nədir?

Tarix üzrə fəlsəfə doktoru, tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, bu sahədə dərsliklərin olmaması çox mənfi bir haldır və bunun məsuliyyətini ali təhsil müəssisələri daşıyırlar: "Çox təəssüf ki, bu gün ölkəmizin ali məktəblərinin magistratura və doktorantura pillələri üçün dərslik vəsaiti yoxdur. Ölkənin 50 təhsil müəssisəsində 180 ixtisas üzrə ayrı-ayrı sahələrə aid kadr hazırlığı həyata keçirilir. Onlar magistratura üzrə 56 proqramda cəmləşiblər. Dövlət İqtisad Universiteti və Bakı Dövlət Universiteti istisna olmaqla, təəssüflər olsun ki, digər universitetlər magistratura və doktorantura üzrə vəsaitlərini hazırlayıb çap etməyiblər. Baxmayaq ki, bu ali məktəblər yalnız bakalavr pilləsi üzrə resurslardan istifadə edərək tədris prosesini qururlar. Bu da o deməkdir ki, universitetlər tərəfindən magistratura və doktorantura pilləsinə ciddi yanaşılmır. Çünki hələ də "Ali təhsil haqqında" qanun layihəsi qəbul edilmədiyi üçün, onun ümumi proqramında boşluqlar var. Azərbaycan universitetləri kadrlara bakalavr pilləsində bütün məlumatları, informasiyaları verirlər, təhsil bakalavr pilləsində bitir. Halbuki, bakalavr pilləsində tədris sadələşdirilsəydi, ixtisaslı kadrların əldə etməli olduğu bilik və bacarıqlar təhsilin növbəti pilləsinə çatdırılmalı idi".

K.Əsədov hesab edir ki, ali məktəblər akkreditasiyadan keçərkən mütləq onların göstəriciləri qeyd edilməlidir. Onun sözlərinə görə, bakalavr pilləsində tələbələrə dərs deyənlər eyni vəsaitlərlə magistr və doktoranturada da dərs deyirlər: "Eyni dərsliyi orada keçirlər, təkrarçılıq olur. Ona görə də bizim gənclər kütləvi olaraq magistratura və doktoranturaya getmək istəmirlər. Bu səbəbdən də magistratura və doktorantura pilləsində oxuyanların bilik, bacarıqları bakalavr pilləsindən fərqli deyil, çünki eyni informasiya öyrədilir. Bu isə düzgün yanaşma deyil. İxtisaslaşma və dərinləşmə fərqli olmalıdır. Azərbaycan universitetlərinin dünya reytinqində olmamasının əsas səbəblərindən biri də onların bu standartlara uyğun gəlməməsidir. 2005-ci ildən Bolonya prosesinə keçmişik. Bunun da tələblərindən biri bakalavr pilləsindən fərqli olaraq magistratura pilləsində daha genişləndirilmiş və dərinləşdirilmiş informasiyaların, elmi-praktik tədbirlərin keçirilməsidir, lakin biz o tələbi yerinə yetirmirik" - deyə müsahibimiz vurğuladı.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin rəhbəri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov qeyd etdi ki, magistratura pilləsindən fərqli olaraq, doktorantura pilləsində dərslik olmur. "Magistratura pilləsində dərslik problemi var və bu çox ciddi məsələdir. Hələ də bu pillə üzrə keyfiyyətli, standartlara uyğun dərsliklər hazırlanması problem olaraq qalır. Bu gün bizim ali təhsil müəssisələrini ən çox narahat edən hallardan biri magistratura pilləsində həm proqramların tələblərə cavab verməməsi, həm də dərsliklərlə bağlı problemlərdir. Bu çox ciddi məsələdir. Bu da təəssüf ki, Azərbaycanda magistratura pilləsini geri salan məqamlardan biridir. Xüsusilə mövcud olan problemlərdən biri magistratura pilləsindəki dərslərin bakalavr pilləsindəki dərslərin təkrarı olmasıdır. Bu çox narahatlıq doğuran məqamlardır. Məsələ bundadır ki, magistratura pilləsinin Azərbaycanda xeyli müddətdir mövcud olmasına baxmayaraq, bu sahədə kadr hazırlığında xeyli ciddi qüsur var. Magistratura pilləsində keçilən dərslər bir sıra hallarda magistratura pilləsində də keçilir. Bu da dərsliklərlə bağlı problemlə bağlıdır. Magistratura ali təhsilin tamamlanmış formasıdır, həmçinin də bu, elmi tədqiqatlara başlanğıcdır. Nəzərə alsaq ki, magistraturada gənclərimizin aldıqları təhsil, əslində, mütərəqqi dünya səviyyəsində magistratura hazırlığından bir xeyli geri qalır, burada formallıq da müşahidə olunur. Məsələn,




***Kamran Əsədov:*** *"Dövlət İqtisad Universiteti və Bakı Dövlət Universiteti istisna olmaqla, təəssüflər olsun ki, digər universitetlər..."*

***İlqar Orucov:*** *"Magistratura pilləsində dərslik problemi var və bu çox ciddi məsələdir"*

magistratura pilləsində işlərin yerinə yetirilməsində, diplom işlərinin hazırlanmasında və müdafiəsi məsələlərində də xeyli problem var. Plagiat hallarının da mövcud olduğu məlumdur. Bundan başqa, burada bəzi qaranlıq məqamlar da var ki, bu, magistrlərlə rəhbərlər arasındadır. Açığını deyim ki, burada bir sıra xoşagəlməz hallara yol açan məqamlar var" - deyə İ.Orucov qeyd etdi.

Doktoranturalarla bağlı vəsaitlərə gəlincə, İ.Orucov qeyd etdi ki, onlar lazımi vəsaitləri əldə etmək üçün mövcud vəsaitlərdən yararlana bilirlər, amma onların bu vəsaitləri əldə etmələri elə də asan deyil. Elektron kitabxanalarda bu vəsaitlərlə tanış olmaq üçün müəyyən miqdarda vəsait ödənilməsi tələb olunur. "Amma biz bir neçə müddətdir bu prosesdə bizim gənclərə dəstək olmaq istəyirik. Elmi jurnallarda çap olunma, elmi jurnallara çıxış məsələlərində artıq gəncləri Avropada XXI əsrin trendi olan "Open Akademiya" və digər platformalara qoşmaq istəyirik. Açığı, bu sahədə də xeyli problem var. Doktorantura pilləsinə qəbulla bağlı bəzi neqativ hallar, təəssüf ki, hələ də qalmaqdadır. Xüsusilə də nəzərə alsaq ki, gənclər bu pillədə təhsil almağa elə də meyl etmirlər" - deyə İ.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

**Çoxu ölkəmizdə fəaliyyət göstərən yaradıcı qurumlara, ittifaqlara Sovet dövrünün qalığı kimi yanaşır. Azərbaycandan fərqli olaraq, keçmiş SSRİ məkanına daxil olan respublikaların çoxunda yaradıcı ittifaqlara fərqli yanaşmalar mövcuddur.**

# Yaradıcılıq ittifaqlarının büdcədən ayrılması və təsərrüfat hesabına keçidi gündəmdə...




***Ayaz Arabaçı:** "Yaradıcı qurumların təsərrüfat hesabına keçməsi, onların dövlət büdcəsindən aldıqları dotasiyanın kəsilməsi..."*

***Qiymət Məhərrəmli:** "Azərbaycanda da yaradıcı ittifaqların, birliklərin təsərrüfat hesablı qurumlara çevrilməsi zəruridir"*

Bu ölkələrin çoxu dövlət müstəqilliyi əldə etdikdən sonra yaradıcı ittifaqların saxlanmasına dövlət büdcəsindən dotasiya ayrılmasını dayandırıb, bu da yaradıcı qurumların təsərrüfat hesablı qurum kimi fəaliyyət göstərməsi ilə nəticələnib. Hətta bəzi dövlətlərdə dövlət büdcəsindən heç bir maliyyə almayan yaradıcı ittifaqlar fəaliyyətlərini davam etdirməkdə çətinlik çəkdikləri və maddi təminat əldə etmədikləri üçün fəaliyyətlərini tamamilə dayandırıblar. Sözsüz ki, bu da həmin qurumlarda təmsil olunan yaradıcı şəxslərin özlərinin maddi təminatına mənfi təsir göstərib.

Bununla belə, dövlət büdcəsindən maliyyə almadan fəaliyyətini uğurla davam etdirən yaradıcılıq ittifaqları da az deyil. Onlar öz layihələri hesabına varlıqlarını qoruya bilirlər. Onlara üzv olan yaradıcı insanlar öz əsərlərini beynəlxalq bazara çıxarmaqla külli məbləğdə qonorar alırlar. Hətta bir çoxunun əsərləri, layihələri beynəlxalq şirkətlərin marağını cəlb edir.

Azərbaycanda isə bütün yaradıcılıq birlikləri, ittifaqları öz varlıqlarını dövlət büdcəsindən ayrılan dotasiya vəsait hesabına qoruyurlar. Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Aşıqlar Birliyi, Azərbaycan Memarlar İttifaqı, Azərbaycan Bəstəkarlar İttifaqı, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Teatr Xadimləri İttifaqı, Azərbaycan Respublikası Kinematoqraflar İttifaqı bir qurum kimi dövlət büdcəsindən maliyyələşirlər. Bir çox hallarda dövlət büdcəsindən onlara ayrılan vəsaitin az olmasından şikayətlənirlər. Özləri isə büdcəyə 1 manat da olsa xeyir gətirmirlər.

Son zamanlar yaradıcılıq ittifaqları ilə bağlı yeni bir məsələ gündəmdədir. Belə fikirlər mövcuddur ki, yaradıcı ittifaqlara dövlət büdcəsindən ayrılan dotasiya dayandırılmalı və onlar öz fəaliyyətlərini təsərrüfat hesablı qurum kimi davam etdirməlidirlər.

Yaradıcı şəxslərin əksəriyyəti bildirir ki, bu qurumlar yalnız bir neçə nəfər üçün fəaliyyət göstərir. Yəni bu təşkilatlara ayrılan vəsaitdən yalnız sədr başda olmaqla müəyyən insanlar bəhrələnir, qalan üzvlər isə kənarda qalır. Yaradıcı şəxslər hesab edirlər ki, bəzi ittifaq sədrləri üçün bu qurumlar gəlir yeridir. Şairlər, yazıçılar, rəssamlar, aktyorlar, memarlar, aşıqlar, eləcə də digər yaradıcı insanlar qeyd edirlər ki, onsuz da bu qurumların yaradıcı adamlara kütləvi olaraq xeyri yoxdur, onlar təsərrüfat hesablı qurumlar kimi fəaliyyət göstərməlidirlər.

Doğrudur, məsələyə fərqli yanaşanlar da var. "Yaradıcı qurumların çoxu təsərrüfat hesabına keçərsə, onlar öz mövcudluqlarını qoruya bilməzlər" deyənlər də var.

Tanınmış şair Ayaz Arabaçı hesab edir ki, yaradıcı ittifaq və birliklərin təsərrüfat hesabına keçməsi o qurumların mövcudluğuna son qoya bilər. Onun fikrincə, bu gün Azərbaycanda özünü saxlayan, öz hesabına üzvlərinə maddi dəstək verə biləcək yaradıcı qurum yoxdur: "Yaradıcı qurumların təsərrüfat hesabına keçməsi, onların dövlət büdcəsindən aldıqları dotasiyanın kəsilməsi ilə bağlı fikir və təkliflərə münasibətim yaxşı deyil. Çünki bu qurumlar dövlət himayəsində olsa yaxşıdır. Yaradıcılıq başqa bir sahədir.Yaradıcı adamların pul qazanmaq kimi bir lüksü yoxdur. Əks təqdirdə onlar da alver havasıyla nəfəs alıb ayrı yol seçərdilər".

Yaradıcı ittifaqların bütün üzvlərinə eyni gözdə baxmamasına, yalnız beş-üç nəfərə "gün ağlaması"na gəlincə, o bildirdi ki, bu, o təşkilatlara rəhbərlik edən şəxslərin daha çox vicdan məsələsidir: "Amma məsələ burasındadır ki, o qurumlardan beş-on nəfər dolanır, artıq vicdan məsələsidir, o da onlarda yoxdur.

Təbii ki, qurumların fəaliyyətində dəyişikliklər olmalıdır. İllərlə yerində pas atmışları arxivin ən tozlu yerinə tullamaq lazımdır. Hər şey sevgi ilə tənzimlənir. İçlərində sevgisi ölmüş adamlardan danışmağa dəyməz".

A.Arabaçı hesab edir ki, təşkilatların maliyyəsini kəsməkdənsə, bu qurumlarda islahatlar həyata keçirilməlidir.

Filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli isə hesab edir ki, Azərbaycanda fəaliyyət göstərən yaradıcı qurumlar dövlət büdcəsinə bir yükdür və bu yükün azaldılmasının yeganə yolu onların təsərrüfat hesabına keçirilməsidir. "Yaradıcı ittifaqlar Sovet dövründən qalıb. Həmin dövrdə bu qurumlar Sovet ideologiyasının carçısı idi. Bundan başqa, yaradıcı ittifaqlar dövlətə xeyir verirdilər, onun siyasətini, ideologiyasını öz əsərləri ilə təbliğ edirdilər. Rəssamlar müxtəlif janrlarda çəkdikləri tablolarla, yazıçı-şairlər bədii əsərlərlə, kinematoqraflar filmlərlə və s. SSRİ-ni tərənnüm və təbliğ edirdilər. SSRİ dağılandan sonra bu qurumlar öz əvvəlki funksiyalarını itirdilər. Köhnə funksiyalarından yalnız dövlət büdcəsindən dotasiya almaqları qalıb. Onu da alırlar. Yaradıcı qurumlar dövlətə hazırda heç bir fayda vermirlər, ayrı-ayrı sənətkarlar fərdi şəkildə milli dövlətçilik ideologiyasını, dövlət siyasətini, ölkəmizin nailiyyətlərini təbliğ edirlər. Bu da təbiidir. Biz yaradıcı adamlar hansı yaradıcı ittifaqa üzv olmağımızdan asılı olmayaraq, hər zaman dövlətimizi, onun maraqlarını, milli dövlətçilik ideologiyamızı, azərbaycançılığı təbliğ edirik. Yəni bunun üçün hansısa bir qurumun üzvü olmaq vacib deyil. Yaradıcı qurumlara dövlət büdcəsindən vəsait ayrılması artıq bir çox postsovet ölkəsində dayandırılıb, onlar təsərrüfat hesablı qurumlara çevriliblər. Azərbaycanda da yaradıcı ittifaqların, birliklərin təsərrüfat hesablı qurumlara çevrilməsi zəruridir. Bəlkə bununla dövlət büdcəsindən asılı olan qurumların sayı azala".

Q.Məhərrəmli qeyd etdi ki, dövlət yaradıcı şəxsləri həmişə qiymətləndirir, mükafatlandırır. Bundan başqa, o bildirdi ki, bir sıra hallarda mükafata, fəxri ada, təqaüdə layiq olan yaradıcı şəxslərin adları qurum rəhbərləri tərəfindən aidiyyəti qurumlara təqdim edilmir. "Bilirsiniz, indi yaradıcı qurumlar bəzilərinin qazanc yerinə çevriliblər. Rəhbərlik, layiq olduolmadı, öz istədiyi adamı mükafata, fəxri ada, təqaüdə təqdim edir. Bu da belə təəssürat yaradır ki, bu qurumlar yalnız beş-üç nəfərə işləyir, onlara lazımdır" - deyə müsahibimiz vurğuladı.

***İradə SARIYEVA***

№ 12 (4143) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

24 YANVAR 2020-ci il

www.baki-xeber.com



# Tokioda tuna balığı hərracda 1,8 milyon dollara satıldı

**Yanvarın 5-də də Tokionun Toyoşu balıq bazarında ilk hərrac zəngləri çalınıb. Topdan satış tacirlərinin nümayəndəsi bildirib ki, o, cari ildə mavi tuna balığı hərraclarının uğurla davam edəcəyinə inanır.**

"AZƏRTAC" xəbər verir ki, ilin və yeni Reyva dövrünün ilk hərracına yerli vaxtla səhər saat 5-də start verilib. Yaponiyanın şimalında yerləşən Aomori prefekturasında tutulmuş 276 kiloqram ağırlığında tuna balığı 193 milyon yenə (təqribən 1,8 milyon dollar) satılıb. Bu, hərracların tarixində ötən il qeydə alınan rekord məbləğdən sonra ikinci göstəricidir. Hərracların qalibi isə mənzil-qərargahı Tokionun Tsukizi rayonunda yerləşən suşi restoranlar şəbəkəsinin sahibi olub. Həmin şəbəkənin prezidenti Kiyoşi Kimura deyib ki, qiymət çox baha olsa da o, yeni ilin və yeni Reyva dövrünün ilk hərracını qazanmaqdan məmnundur. K.Kimura əlavə edib ki, indi onun restoranları öz müştərilərinə ən yaxşı tuna balığını təklif edəcək.

## "Amazon" əlin içi ilə ödəniş etməyə imkan verəcək

**"Amazon" şirkəti bir toxunuşla edilən ödənişləri yeni səviyyəyə qaldırmaq istəyir. "İctnews.az" bildirir ki, sözügedən şirkət əlin içi ilə ödəniş etməyə imkan verəcək ödəniş terminalları hazırlamağı planlaşdırır.**

Bu haqda "The Wall Street Journal" yazıb. "Amazon" yeni terminalları kafe, sürətli qidalanma restoranları və ticarət nöqtələrində quraşdırmağı planlaşdırır. Terminallardan ilk dəfə istifadə edərkən insanlar əlin içini skanerdən keçirəcək və biometrik məlumatları öz bank hesablarına birləşdirəcəklər. Bundan sonra onlar artıq bir toxunuş etməklə alış-verişin haqqını ödəyə bilərlər.

## Elan

Muradov Şamil Hacıməhəmməd oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Y.Əliyev küçəsi, 2595 saylı məhəllə, bina 4, blok 1, mənzil 167 ünvanının müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Vaqifli Jalə Cəlal qızına Füzuli rayonundan verilmiş məcburi köçkün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Talıbova Tərifə Mikayıl qızının adına, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yerləşən 11 a nömrəli bağ evinə 30.04.2005-ci il tarixdə verilmiş çıxarış və ya qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kərimov Elşən Alim oğlunun adına, Bakı şəhəri, M.Hadi küçəsi, ev 76, mənzil 52 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Quliyev Nihad Səfiyar oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, Qurban Xəlilov küçəsi, ev 20, mənzil 53 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Quliyev Nihad Səfiyar oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, Qurban Xəlilov küçəsi, ev 20, mənzil 58 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## "Bakcell" və İNNOLAND gənc developerləri investorlarla tanış edib

**"Bakcell"in "Applab" proqramı və İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi özlərinin birgə inkubasiya proqramının iştirakçıları üçün "Demo Day" (Demo Günü) tədbiri keçirib.**




Tədbirin məqsədi maliyyələşməyə ehtiyacı olan startaplar və sərmayə yatırmaq istəyən potensial investorları bir araya gətirmək və tərəflər arasında sağlam mühitdə davamlı əlaqələrin qurulmasına dəstək göstərməkdir.

"Bakcell" və İNNOLAND tərəfindən həyata keçirilən birgə inkubasiya proqramının finalçıları öz nailiyyət və yeniliklərini nümayiş etdirib perspektivli startaplara investisiya yatırmaq marağında olan şirkətlərin nümayəndələri və biznesmenlərlə tanış olmaq üçün dəvət olunublar.

"Bakcell" tərəfindən dəstəklənən "Bon.az" (www.bon.az - onlayn "cashback" xidməti), "Towaves" (www.towaves.com - ortaq maraq və oxşar fikirləri olan insanları bir araya gətirən şəbəkə) və "Fonibo" (www.fonibo.com- ərzaq və yeməklərin çatdırılması platforması) startapları da layihə və gələcək planlarla bağlı məlumat vermək və potensial investorların diqqətini cəlb etmək imkanı qazanıblar.

2018-ci ildə "Bakcell" şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Həmin müqavilə çərçivəsində "Bakcell" və İNNOLAND yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. İnkubasiya müddəti ərzində startap komandaları öz layihələri üzərində daha effektiv şəkildə işləyərək startap ideyalarını uğurlu və innovativ biznesə çevirmək üçün İNNOLAND və "Bakcell" tərəfindən təqdim olunan pulsuz ofis sahəsi, peşəkar məsləhətlər, avadanlıq, təlimlər və digər imkanlardan istifadə edirlər.

Xatırladaq ki, 2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell" şirkətinin "AppLab" proqramından dəstək alırlar.





**Qoç** - İş baxımından o qədər də uğurlu gün deyil. Çox şeyi riskə atmalı və alın təri ilə işləməli olacaqsınız. Bununla belə, bürcün bəzi nümayəndələri rəqibləri üzərində qələbə qazana biləcəklər.



**Buğa** - Vəziyyətdə əhəmiyyətli dəyişiklik gözlənilmir. Bu günü uğurlu hesab etmək olar. Amma sizdə zəiflik müşahidə olunacaq və diqqəti mənfi təsirlərdən qorunmağa yönəltməlisiniz.



**Əkizlər** - Sizin bəzi hərəkətləriniz tənqidlə qarşılanacaq. Amma bunu ürəyinizə salmağa dəyməz. Yaxınlarınızla münasibətlərdə aydınlıq, şəffaflıq və səlislik çox vacibdir: yarımçıq sözlərdən və ikimənalılıqdan uzaq olun.



**Xərçəng** - Yaxınlarınızla fikir ayrılıqlarını günün birinci yarısında yoluna qoymağa çalışın. Axşam yaxınlaşdıqca sülhü bərqərar etmək çətin olacaq. Unutmayın ki, bu gün şəxsi sahədə ən vacib şey diqqətdir.



**Şir** - Uğursuz, gərgin və çətin gündür. Hətta, bir-birinin yaxşılığını istəyən adamlar arasında da fikir ayrılıqları yaranacaq. Zamanın sınağa çəkdiyi müttəfiqlər arasında münaqişələr mümkündür.



**Qız** - Bu gün əvvəlkindən bir qədər yaxşıdır. Emosional fon sabit deyil, əhval-ruhiyyəniz saatbasaat dəyişəcək. Amma niyə sevindiyinizi və ya niyə kədərləndiyinizi bəzən heç özünüz də anlaya bilməyəcəksiniz.



**Tərəzi** - Yeni layihələrə başlamaq üçün pis gün deyil. Onlar barədə nə qədər tez düşünsəniz, o qədər yaxşıdır. Nüfuzlu adamlarla fikir ayrılıqları mümkündür. Amma sonunda razılığa gəlmək mümkün olacaq.



**Əqrəb** - Əlverişli gündür. Hadisələr sadə prinsipdən asılıdır: nə qədər çox enerji və həvəs olsa, qələbələr bir o qədər böyük olacaq. Əqrəblər nəinki məhsuldar işləyəcəklər, həm də başqalarını şücaətə ruhlandıra biləcəklər.



**Oxatan** - Sizin gününüzdür. Faktiki olaraq, temp və tonu siz verəcəksiniz. Ətrafdakılara isə buna uyğunlaşmaq qalır. Bu gün istənilən vəziyyətdə düzgün qərarlar qəbul etmək qabiliyyətinizə ehtiyac var.



**Oğlaq** - Günün birinci yarısından ən çətin işlərin həlli üçün istifadə edin. Məhz bu vaxt diqqəti cəmləşdirmək, prioritetləri düzgün müəyyənləşdirmək, lazımsız şeyləri kənara atmaq daha asan olacaq.



**Dolça** - Yüksək işgüzar aktivliyinizlə fəxr edə bilməzsiniz. Bu isə o deməkdir ki, işlərdə durğunluq tamamilə mümkündür. Maraqlı imkanları əldən buraxmaq, tənbəllik üzündən cəlbedici təklifləri rədd etmək təhlükəsi var.



**Balıqlar** - Sizə elə gəlir ki, hər şey çox da pis getmir. Amma yenicə rahatlayırsınız ki, yer ayağınızın altından naməlum istiqamətdə qaçır. Öz problemlərinin həllini başqalarına etibar etməyə öyrəşənlər üçün daha çətin olacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Türkiyədə naməlum heyvan qalıqları aşkarlanıb

**Türkiyənin Trabzon şəhərindəki qayalıq ərazidə naməlum heyvan qalıqları aşkarlanıb.**

"AZƏRTAC" xəbər verir ki, skeletin 1.5 metr uzunluğu olan iki ayaqlı heyvana məxsus olduğu bildirilir. Türkiyənin Təbiəti Qoruma və Milli Parklar İdarəsinin əməkdaşları tərəfindən qalıqların araşdırılması işlərinə başlanıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.